İlk mərhələnin özəlliklərinə, qısa da olsa, nəzər yetirdik: bu mərhələdə ABŞ və Qərb dövlətləri Türkiyəni özlərinin Avrasiyadakı, ələlxüsus postsovet məkanındakı müttəfiqi olaraq görürdü və ona böyük ümidlər bağlayırdı. Bu səbəbdən də Türkiyənin bu bölgəyə siyasi və mədəni nüfuzuna xeyli sakit yanaşırdılar.

İkinci mərhələ isə 1990-cı illərin sonlarından etibarən ABŞ-Türkiyə münasibətlərinin ümumi soyuqlaşması fonunda gedən proseslərə bağlıdır və Orta Asiyada da özünü büruzə vermişdir.

Ümumiyyətlə, Birləşmiş Ştatların Avrasiyadakı hadisələrə münasibəti tarixində indiyədək hələ elə bir geosiyasi presedent olmamışdır ki, 11 Sentyabr hadisələri qədər bu dövlətin bölgə siyasətinə ciddi təsir etmiş olsun. Üstəlik, nəzərə alsaq ki, bu təsir ABŞ və onun müttəfiqləri üçün bölgədə mövqelərini möhkəmlətmək üçün əlverişli bir şərait yaratmışdır, onda dünyadakı geosiyasi durumun məlum hadisələrdən sonra nə üçün bu qədər mürəkkəb səciyyə alması daha aydın olar. Beynəlxalq terrorçuluğa və ekstremizmə qarşı mübarizə adı altında müttəfiq qüvvələri birləşdirən Birləşmiş Ştatlar istənilən iri dövlətin və heç şübhəsiz, Türkiyənin Orta Asiyada güclənməsi məsələsinə həssaslıqla yanaşır.

Bu dövrdən etibarən Türkiyə üçün Orta Asiyada ciddi problemlər yaradan məsələ də ilk növbədə, ABŞ-ın uzun müddətə nəzərdə tutulmuş qlobal liderlik planlarının Mərkəzi Aiyada özünü daha güclü büruzə verməsi ilə bağlıdır. Vaşinqton beynəlxalq sabitlik kontekstində Mərkəzi Asiyanın təhlükəsizlik problemlərinin artan əhəmiyyətini yaxşı anlayır və Orta Asiya respublikaları ilə də buna müvafiq münasibətlər qurur.

Nəzərə alsaq ki, hələ 1998-1999-cu illərdə Türkiyə-ABŞ münasibətlərində

[103] Danilov, Adı çəkilən əsəri, s.32

soyuqlaşma başlamışdır, Türkiyənin Orta Asiya bölgəsindəki vasitəçi rolunun ABŞ üçün artıq böyük əhəmiyyət kəsb etməməsi fikri də yarana bilər. Hətta həmin illərdə Amerika mətbuatında belə bir mülahizə irəli sürülürdü ki, Birləşmiş Ştatların Türkiyə vasitəsilə Orta Asiya respublikaları ilə əlaqələr yaratmaq planlarında dəyişiklik baş vermişdir və Vaşinqton indi həmin respublikalarla Türkiyənin vasitəsilə deyil, birbaşa, ikitərəfli münasibətlərə daha çox üstünlük verir.[104] Amerikanın Orta Asiyadakı Türkiyənin planları ilə bağlı "laqeydliyi" də öz növbəsində ABŞ-Türkiyə münasibətlərini pisləşdirirdi.

Türkiyə üçün Orta Asiya ilə bağlı digər problem – bu bölgədə Rusiya, Çin, İran, Pakistan, Əfqanıstan kimi dövlətlərin də maraqlarının güclü olmasıdır. Şübhə yoxdur ki, bölgənin iri "oyunçuları" – Rusiya və İran Türkiyənin siyasətinə xeyli şübhə və qısqanclıqla yanaşırlar. Orta Asiyadakı geosiyasi durum, ABŞ, Rusiya, Çin, İran, Pakistan, Əfqanıstan kimi dövlətlərin qarşılıqlı münasibətləri, xüsusilə 11 sentyabr hadisələrinin təsiri nəzərə alınmaqla, göstərir ki, adı çəkilən dövlətlərin həm bir-birilə, həm də Türkiyə ilə münasibətləri xarakter etibarilə çox mürəkkəbdir.

Əvvəla, son onillikdə Rusiyanın, Çinin və İranın geosiyasi mövqelərinin yaxınlaşması nəzərə çarpır, bu yaxınlaşma isə antiAmerikan, antiPakistan və hətta antiTürkiyə xarakteri almışdır, desək, yanılmarıq. Bununla əlaqədar analitiklər Avrasiyada ABŞ-ın və Türkiyənin üstünlüyünə qarşı "Rusiya – İran – Çin" üçbucağının yaranacağını proqnozlaşdırırlar. Digər tərəfdən, Rusiya, Çin və İran Avropa, Yaxın və Orta Şərq siyasətində ABŞ-la, Türkiyə və Pakistanla ayrı-ayrılıqda sıx əməkdaşlıqda da maraqlıdırlar. Biz bunu Əfqanıstanda antiterror əməliyyatlarının həyata keçirilməsi prosesində də izlədik. Ona görə də qəti olaraq deyə bilərik ki, ABŞ-ın və Türkiyənin Orta Asiyada ən güclü opponentləri olan Rusiyanın, Çinin və İranın bölgə siyasəti çox mürəkkəbdir və birmənalı sayıla bilməz. Eyni məqamları Orta Asiya respublikalarının özləri üçün də demək olar.

Türkiyənin bölgədə təsir gücü bu dövr ərzində Orta Asiyadakı siyasi və iqtisadi sistemlərdən də çox asılı olmuşdur və bu cəmiyyətlərdəki radikal islamçıların qarşısının alınması məsələsində Türkiyə nümunəsinin nə dərəcədə əhəmiyyətli olub olmaması Türkiyənin təkcə Avrasiyaçı siyasətinə deyil, həm də Qərblə münasibətlərinə də təsir etmişdir.

**Türkiyənin Orta Asiya Respublikaları ilə İqtisadi Əməkdaşlığının Genişlənməsi**

Orta Asiyada son onillikdə bərqərar olmuş geosiyasi durum Türkiyəni bu bölgədə siyasi və iqtisadi mövqelərini nə yolla olursa olsun, qoruyub saxlamaq məcburiyyətində qoymuşdur. Bunun üçün isə yalnız mədəniyyət sahəsində əməkdaşlıq, əlbəttə ki, kifayət sayıla bilməz. Bu səbəbdən, 2000-ci illərin əvvəllərindən başlayaraq Türkiyə Orta Asiyanın yeni müstəqil respubliakaları ilə ən müxtəlif layihələrdə, o cümlədən, Şərq-Qərb enerji dəhlizi, "Böyük İpək Yolu" kimi əhəmiyyətli layihələrdə ən fəal şəkildə əməkdaşlıq etmək xəttini götürmüşdür.

Bununla əlaqədar belə bir faktı qeyd etmək yerinə düşər ki, təkcə Türkdilli Dövlətlər Birliyi çərçivəsində Türkiyə 1992-ci ildən başlayaraq bölgə dövlətlərinə 1,5 milyard dollar vəsait ayırmışdır.[105]

Maraqlıdır ki, Türkiyənin ABŞ və Qərb ilə gərgin münasibətləri fonunda onun 2005-2006-cı illərdə Orta Asiya respublikaları ilə iqtisadi əlaqələri həmin Qərb

[104] Yurçenko, S.V., Geostrategiya SŞA v prosesse stanovleniya qlobalnoy derjavı, Avtoreferat doktorskoy dissertasii. Kiyev, 2001, s.21-22
[105] Həsənov, Adı çəkilən əsəri, s.560

şirkətlərinin də iştirak etdiyi layihələr çərçivəsində genişlənmişdir. Məsələn, 2005-ci ilin noyabrında Türkmənistanın neft-qaz yataqlarının istismarının artırılması məqsədilə "Türkmənneft" Dövlət Konserni ilə Türkiyənin "Çalık-Enerji" şirkəti arasında 240 milyon dollar dəyərində yeni müqavilə imzalanır. Proqrama müvafiq olaraq Akpatlavukda amerikan şirkətlərinin də iştirak etdiyi daha 7 qaz yatağının istismarı ilə bağlı razılaşma əldə olunmuşdur.[106] 2006-cı ildə "Çalık Enerji" əməkdaşlığın coğrafiyasını genişləndirərək Türkmənistanın cənubunda da yeni struktur layihələrə qatılmışdır.[107]

Ümumilikdə isə, Orta Asiya respublikaları bölgədə həyata keçirilən qlobal iqtisadi layihələrin reallaşdırılmasında Türkiyənin yaxından iştirakına xüsusi önəm verir. Məsələn, Qazaxıstan Türkiyənin iştirak etdiyi ən böyük layihələrdən olan Bakı – Tbilisi – Ceyhan Əsas Neft İxracı Kəmərinin həyata keçirilməsində iştirak etməkdə çox maraqlıdır. Belə ki, Astanada hesab edirlər ki, bu xəttin Aktau – Bakı – Tbilisi – Ceyhan xəttinə çevrilməsi Qazaxıstanın geostrateji maraqlarına tam cavab verə bilər və tərəflərin hər biri üçün əhəmiyyəli olar. Eyni məqamları Özbəkistan üçün də söyləmək olar. Özbəkistan TRASECA layihəsinə çox böyük önəm verir və bu layihədə Türkiyə kimi iri bir dövlətin onun strateji tərəfdaşı olaraq çıxış etməsi yeni müstəqil dövlət üçün həm də siyasi əhəmiyyət kəsb edir.

Xəzər dənizi yataqlarının istismarı məsələlərində həm Rusiya, həm İran, həm Azərbaycanla problemləri olan Türkmənistan üçün də Türkiyə Respublikası ilə sıx əməkdaşlıq önəmlidir. Üstəlik, Türkiyənin Azərbaycan Respublikası ilə də çox yaxın tərəfdaşlıq münasibətlərini nəzərə alan Türkmənistan hər iki dövlətlə çoxtərəfli münasibətlərdə maraqlıdır.

**Sonuç (ve Öneriler)**

Bu gün Orta Asiya geostrateji maraqların toqquşduğu, amma eyni zamanda transmilli layihələrin gerçəkləşdirildiyi bölgə olaraq həm Türkiyə üçün, həm digər iri dövlətlər üçün bəyük əhəmiyyətə malikdir və bu bölgənin dövlətləri ilə həm hərbi, həm siyasi, həm iqtisadi, həm də mədəni sahələrdə əməkdaşlıq, bu əməkdaşlığı tərəfdaşlıq səviyyəsinə qaldırmaq Türkiyə ilə yanaşı, ABŞ-ın, Rusiyanın, Çini və İranın planlarında prioritetdir.

Şübhəzis, bu mürəkkəb beynəlxalq vəziyyətdə Orta Asiya bölgədində sağlam durumu və sağlam rəqabəti qorumaq çox çətindir. Bu mənada Türkiyəni yaxın onilliklərdə son dərəcə ciddi mübarizə gözləyir. Böyük dövlətlərin, xüsusilə ABŞ, Rusiya, İran və Çinin bölgə uğrunda rəqabətinin artdığı bir zamanda, Türkiyənin Orta Asiya respublikaları ilə xüsusi düşünülmüş əlaqələr qurması zəruridir. Belə bir reallığı da yaddan çıxarmaq olmaz ki, adı çəkilən iri dövlətlər arasında yalnız Türkiyənin bölgə dövlətləri ilə eyni vaxtda həm etnik, həm dil və həm də din birliyi vardır. Bu səbəbdən Türkiyənin daha üstün əlaqələr qurması və bölgədə üstünlük əldə etməsi üçün şansları da böyükdür.

Xüsusi olaraq qeyd etmək istərdik ki, Türkiyənin Orta Asiya bölgəsində güclənməsi yalnız onun dövlət maraqlarına, deyil, ümumilikdə bölgənin maraqlarına uyğundur. Qərb dövlətlərindən fərqli olaraq, Türkiyə Avrasiyada barışığın və təhlükəsizliyin təminatçısı olaraq böyük potensiala sahibdir, çünki bu ölkənin siyasəti qlobal oyunlardan uzaqdır. Ona görə də hazırkı Avrasiyaçı strategiyanın davam

[106] İrxin, A.A., Vneşnepolitiçeskaya strategiya SŞA v otnoşenii Turetskoy Respubliki, Avtoreferat kandidatskoy dissertasii, Kiyev, 2006, s.20
[107] Yenə orada, s.23

etdirilməsi təqdirində Türkiyə Orta Asiyanın siyasi və iqtisadi inkişafında rol oynaya biləcək böyük qüvvələrdən birinə çevrilmə perspektivinə sahibdir.

**KAYNAKÇA**

1. DANİLOV, V.İ., "Turçiya i postsovetskaya Çentralnaya Aziya", journal "Aziya i Afrika seqodnya", 1994, 2, s. 29-32
2. HƏSƏNOV, Ə.M., Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti, Bakı, "Azərbaycan" nəşriyyatı, 2005
3. "İnostrannıye investisii v Tursii", journal "Korinf", Moskva, 2004, 6, s.16-18
4. İRXİN, A.A., Vneşnepolitiçeskaya strategiya SŞA v otnoşenii Turetskoy Respubliki, Avtoreferat kandidatskoy dissertasii. Kiyev, 2006
5. MOİSEYEV, P., "Çemu uçit turetskiy opıt", journal "Aziya i Afrika seqodnya", 1994, 2, s. 24-28.
6. NƏSİROV, E.X., ABŞ və dünya 11 sentyabrdan sonra, Bakı, "BDU nəşriyyatı", 2003
7. SUAT, İLHAN, Türklerin jeopolitiği ve Avrasyaçılık, Cantekin Matbaaçılık Ticaret Ltdş., 2005
8. YURÇENKO, S.V., Geostrategiya SŞA v prosesse stanovleniya qlobalnoy derjavı. Avtoreferat doktorskoy dissertasii. Kiyev, 2001

TURAN-SAM * YIL: 2011 * CİLT: 3 * SAYI: 12 * SONBAHAR 2011
TURAN STRATEJİK ARAŞTIRMALAR MERKEZİ DERGİSİ
www.turansam.org

# (10) AVRASYA BÖLGESEL ENTEGRASYONUNDA TÜRK DÜNYASININ PERSPEKTİFLERİ (ECO ÖRNEĞİNDE)

**Yegane GÖZELOVA***

**Özet**

XXI. yüzyılın başlarında dünyanın jeopolitik sisteminde Avrasya önemli yerlerden birini işgal ederek dünya siyasetinin merkezine dönüşmüştür. Bir taraftan büyük devletlerin çıkar alanının çatıştığı, farklı uygarlıkların temas noktası olan, diğer taraftan Türkiye, Azerbaycan, Kazakistan ve diğer büyük Türk devletlerinin bulunduğu Avrasya bölgesi, tam anlamıyla gelecek uluslararası ilişkilerin belirlendiği mekandır. Bu yüzden de sözkonusu bölgenin küreselleşmesinde ve entegrasyonunda hükümetler arası örgütlerin önemi büyüktür. Avrasya'nın bölgesel entegrasyon örgütlerinden biri de tüm Türk devletlerinin bir araya geldiği Ekonomik İşbirliği Örgütüdür. (ECO - Economic Cooperation Organization).

ECO, daha 1964-1979 yıllarından faaliyette bulunmuş, yeniden ortaya çıkması 1985 yılında Türkiye, İran ve Pakistan'ın ortak kararı ile mümkün olmuştur. SSCB dağıldıktan sonra ECO'nun sıralarına bu üç devletle birlikte Azerbaycan, Kazakistan, Türkmenistan, Kırgızistan, Özbekistan, Tacikistan ve Afganistan da katılmıştır.

İlk bakıştan entegrasyon süreci kolay yaşanan bir süreç gibi görülebilir. Fakat bu süreç, büyük global siyasetin fonunda yaşandığından, ister istemez bu politikanın lider güçlerinin, çoğu zaman baskıları ile karşı karşıya kalmak zorunda kalmaktadır. Buna ilaveten günümüzde Avrasya entegrasyonunu düşünen diğer örgütler da bulunmakta ve hatta bunlardan bazıları bir birlerinin rakibi konumundadırlar. Bu rekabet ve baskı ortamında bölgesel örgütün ortadan kalkmaması son derece zordur. Fakat ECO'nun dirençli olma konusunda şansı diğerlerine oranla daha fazladır. İlk olarak sözkonusu bölgesel örgütler arasında yalnız ECO en perspektiflisidir. Nitekim Avrasya entegrasyonunun diğer örgütlerinin - Bağımsız Devletler Topluluğu, Rusya-Beyaz Rusya-Kazakistan Gümrük Birliği, Şanghay İşbirliği Örgütü, Karadeniz Ekonomik İşbirliği Asamblesi'nin üyeleri arasında son derece keskin zıtlıklar bulunmaktadır. Oysaki böyle bir duruma ECO devletleri arasında rast gelinmemektedir.

Öte yandan ECO Hazar havzası ve Fars Körfezi bölgesinde gerçekleştirilen küresel enerji projelerini, TRASECA, İNOGATE, Bakü-Ceyhan petrol boru hattı projesinin gerçekleştirildiği stratejik bölgeyi kapsamaktadır. Bu örgüt, dünyanın Hazar, Karadeniz, Fars Körfezi, Avrupa-Asya kavşağı gibi önemli jeopolitik mekanını kapsamaktadır. Son olarak ECO'ya üye devletlerin geniş ekonomik, siyasi potansiyeli, özetle 400 milyon halkı, 7 milyon kilometre kare toprağı, zengin doğal kaynakları vardır.

Tüm bu etkenler ECO'yu dünyanın lider kuruluşları arasına katmakta ve onu Türk dünyası için önemli hale getirmektedir. ECO'nun 10 üyesinden 6 tanesinin Türk devleti olduğunu ve bu örgütün az önce sıraladığımız güçlü kaynaklara sahip

* Bakü Devlet Üniversitesi'nde Doçent Doktor ve Azerbaycan Milli Bilimler Akademisi Tarih Enstitüsü'nde Araştırma Görevlisi. **İletişim kurmak için:** İş telefonu: (+99412)4390351. Ev telefonu: (+99412)4013270. GSM: (+99455)5651235; (+99450)3850533. E-mail: ygezalova@gmail.com. Ev adresi: Bakü (Azerbaycan), AZ 1117, Bileceri gesebesi, A. Zeynallı küçesi, 24a, menzil 28.

olduğunu dikkate alacak olsak, kanaatimizce Avrasya'nın bölgesel entegrasyonu gelecekte Türk dünyasının faydasına gelişecektir.

**Anahtar kelimeler:** entegrasyon, ECO, Türk dünyası, stratejik bölge

**THE PERSPECTIVES OF TURKISH WORLD IN EURASIAN REGIONAL INTEGRATION**
**(IN THE SAMPLE OF ECO)**

**Resume**

Eurasia, which has an essential place in geopolitical system at the beginning of XXI century, became one of the centers of world politics. Eurasia is the place that, in one hand became the centre of confronting interests and negotiating of different cultures, in the other hand the place of establishment of future international relations. This continent is placed by Turkish states as Turkey, Azerbaijan and Kazakhstan, as well as one of the regional integration organizations of this continent is ECO (Economic Cooperation Organization).

ECO began to its activity in 1964-1979s, but its preexistence is related to the decision of Turkey, Iran and Pakistan in 1985. After the decline of the USSR, former Soviet Republics as Azerbaijan, Kazakhstan, Turkmenistan, Kirgizia, Uzbekistan, Tajikistan and Afghanistan entered to ECO.

Nowadays, other organizations also participate in Eurasian integration even they are rivals to one another. It's difficult to preserve the existence of any organization in such rivalry circumstances. But ECO's chance of duration in this situation is much more than other organizations. Initially, there're confrontations between some regional organizations, such as, Organization of Independent States, Russia-Belarus-Kazakhstan Custom-house Union, Shank hay Organization, Black Sea Economic Cooperation Organization. Despite of it, there aren't any rough circumstances among ECO members.

The members of ECO participate in different energy projects, realizing in Caspian and Iran Gulfs, such as TRASECA, INOGATE, BTC and etc. This organization has an essential geopolitical place as well. The members of ECO have large economic, political enrichment, population of 400 million and area of 7 million kilometers, as well as natural resources.

All these priorities prove that, ECO is one of the leading organizations of the world and has an important role in Turkish world. If we take into account these facts, regional integration of Eurasia can change the international processes on the behalf of the Turkish world.

**Key words:** integration, ECO, Turkish world, strategic area

## GİRİŞ

XX yüzilliyin sonu beynəlxalq iqlimin xeyli mülayimləşməsi, qlobal təhlükələrin, o cümlədən nüvə müharibəsinin aradan qalxması ilə yadda qalmışdır. Lakin yeni minilliyin başlanğıcı göstərdi ki, beynəlxalq aləmdə "qızıl dövr"ün gəlməsi ümidi hələlik həyatakeçməzdir.[108] XXI yüzillik bəşəriyyəti yeni qarşıdurmalar və həlli daha çətin vəzifələr qarşısında qoymuş oldu. Bu vəzifələr indi beynəlxalq terrorizmə, transmilli cinayətkarlığa qarşı mübarizə çərçivəsindən çıxmışdır. Bu gün siyasətçilər və politoloqlar daha çox "sivilizasiyaların müharibəsi"ndən, "dinlərin

[108] Quseynov, V.A. Geopolitiçeskaya rol Sredizemnomorsko-Kaspiyskoqo regiona, Sredizemnomorye – Çernomorye – Kaspiy: mejdu Bolşoy Yevropoy i Bolşim Blijnim Vostokom, Moskva, "Qranitsa", 2006, s.9

toqquşması"ndan, planetin enerji ehtiyatları uğrunda ildən ilə artan mübarizəsindən söz edirlər.[109] Amma bu günkü dünyada pozitiv məqamlar da az deyil və onların sırasında "Soyuq müharibə"nin başa çatması ilə qlobal siyasi "istiləşmə", iqtisadi, mədəni əlaqələrin genişlənməsi – "inteqrasiya" deyilən hadisənin yüksək həddinə çatması, nəhəng kommunikasiyaların inkişafı, əmək ehtiyatlarının və kapitalın sərbəst hərəkəti xüsusi qeyd oluna bilər.

Qloballaşmanın və inteqrasiyanın sürətlə getdiyi müasir dünyanın geosiyasi və iqtisadi münasibətləri sistemində Avrasiya bölgəsi əhəmiyyətli yerlərdən birini tutur. Bu bölgə, bir tərəfdən, böyük dövlətlərin maraq dairəsinin kəsişdiyi, digər tərəfdən, müxtəlif sivilizasiyaların – dil, din və mədəniyyətlərin ünsiyyət mərkəzidir. Son onillikdə başlıca enerji, nəqliyyat-kommunikasiya və digər transmilli layihələr də burada cəmlənmişdir. Qeyd etdiyimiz özəllikləri hesabına Avrasiya beynəlxalq münasibətlərin istiqamətlərinin müəyyən olunduğu bir məkandır. Bir çox politoloqlar hətta hesab edirlər ki, dünyanın gələcək təhlükəsizliyinin "açarı" məhz Avrasiya bölgəsindədir.[110]

Avrasiyanın tərkibinə daxil olan Türkiyə, Mərkəzi (Orta) Asiya, Cənubi Qafqaz, Xəzər və Qara dəniz hövzələri, Fars körfəzi ölkələri bu günkü dünyanın müxtəlif hərbi-siyasi və iqtisadi proseslərində iştirak edirlər. Bu proseslər fonunda bölgənin sürətlə genişlənən inteqrasiyası da müşahidə olunur. Avrasiya, bir tərəfdən, ümumdünya inteqrasiyasında iştirak edir, digər tərəfdən, regional və subregional inteqrasiyaya meyl edir. Əslində bunların ikisi də eyni prosesin ayrı-ayrı tərəfləridir və bölgənin qloballaşması, liberallaşması, demokratik transformasiyası üçün vacibdir. Məruzəmizdə əsas diqqəti Avrasiyanın türk dövlətlərinin də iştirak etdiyi subregional təşkilatlardan birinə - ECO-nun fəaliyyətinə yönəldəcəyik.

İlk olaraq qeyd edək ki, son illərdə Avrasiyada gedən inteqrasiya proseslərində dil və din birliyi amili böyük əhəmiyyət kəsb etməkdədir. Bu təmayülün dünyanın gələcək təhlükəsizliyi və sabitliyi üçün nə qədər pozitiv olub olmamasını indidən proqnoz etmək mümkün deyil. Amma gerçəklik ondan ibarətdir ki, Avrasiyanın bu və ya digər dövləti transmilli layihələrdə iştirak etməklə yanaşı, dil, din və etnik yaxınlıq amilinə əsaslanan birliklərə üzvlüyə də meyl edir. Belə kriterilərlə yaranan subregional təşkilatlardan biri də ECO-dur və yarandığı dövrdən indiyədək fəaliyyətini uğurla davam etdirir.

### 1. ECO-nun Yaranma Tarixi Və Təşkilati Quruluşu[111]

İqtisadi Əməkdaşlıq Təşkilatı/Economic Cooperation Organization (İƏT/ECO) 1985-ci ildə Mərkəzi Asiya və Yaxın Şərq ölkələrinin birgə yaratdığı regional dövlətlərarası iqtisadi təşkilat olub özülünü qoyulma tarixi hələ 1960-cı illərə gedir. Belə ki, bu təşkilat 1964-cü ildə yaranmış və Nizamnaməsi 1977-ci ilin martında İran, Pakistan və Türkiyə arasında imzalanmış İzmir müqaviləsi əsasında fəaliyyət göstərən

---

[109] Yenə orada, s.9

[110] VORKUNOVA, O.A. Sredizemnomorye – Çernomorye – Kaspiy: "poqraniçye" v mirovoy politike, Sredizemnomorye – Çernomorye – Kaspiy: mejdu Bolşoy Yevropoy i Bolşim Blijnim Vostokom, Moskva, "Qranitsa", 2006, s.43-50

[111] Məruzənin bu bölməsi aşağıdakı mənbələrin materialları əsasında yazılmışdır: Həsənov, Ə.M., Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti, Bakı, "Azərbaycan" nəşriyyatı, 2005; Qasımlı, M.C., Azərbaycanın xarici siyasəti (konsepsiya məsləri), Bakı, "Mütərcim", 1997; Kratkiy politiçeskiy slovar, Moskva, "III tısyaçeletiye", 2001; ECO-nun rəsmi saytı: http://www.ecosecretariat.org

Regional İnkişafın Əməkdaşlığı Təşkilatının (RCD) varisi sayılır. 1992-ci ilədək ECO çərçivəsində əməkdaşlıq daha çox ikitərəfli xarakter daşımışdır.

1992-ci ilin əvvəllərindən etibarən ECO-nun fəaliyyəti 7 yeni dövlətin – Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Özbəkistan, Tacikistan və Əfqanıstanın bu təşkilata daxil olması ilə genişlənir. 1995-ci ildə BMT Baş Assambleyasının 50-ci sessiyasında ECO ilə əməkdaşlıq haqqında Qətnamə qəbul edilir və ECO BMT-də müşahidəçi statusu alır. Eyni statusa ECO İslam Konfransı Təşkilatında da sahibdir. Bundan əlavə, ECO Avropa İttifaqı, ASEAN kimi təşkilatlarla da konstruktiv əlaqələr saxlayır.

ECO-nun üzv-ölkələri arasında münasibətlərdə iqtisadi əməkdaşlıq üstünlük təşkil edir və siyasi təmayül demək olar ki, yoxdur. Bu sonuncu cəhəti onu Avrasiyanın digər subregional təşkilatlarından fərqləndirir və üstün edir. ECO-nun başlıca iqtisadi və siyasi parametrləri üzv-dövlətlərin iki ildən bir keçirilən sammitlərində müəyyən olunur. 28 noyabr ECO günü kimi qeyd olunur, çünki məhz bu tarixdən etibarən ECO tam tərkibdə fəaliyyət göstərməyə başlamışdır.

ECO Nizamnaməsinin 5-ci maddəsinə müvafiq olaraq təşkilat aşağıdakı struktura malikdir: Xarici İşlər nazirləri Şurası təşkilatın başlıca məşvərət-icraçı orqanıdır. Nazirlər Şurası ildə bir dəfədən az olmayaraq toplanır. Daimi nümayəndələr Şurası qeyd etdiyimiz Nazirlər Şurasının siyasət və qərarlarının həyata keçirilməsi üçün məsul olan orqandır. Onun tərkibinə ECO Katibliyində akreditə olunmuş daimi nümayəndələr/səfirlər daxildir. Bu orqanın iclasları ayda bir dəfə çağrılır. Regional Planlaşdırma Şurası üzv-dövlətlərin müxtəlif dövlət orqanlarının rəhbərlərindən təşkil olunur və bu nümayəndələr həmin ölkələrin hökumət və dövlət orqanlarının adından çıxış edir. Regional Planlaşdırma Şurası ECO qarşısında duran vəzifələrin həyata keçirilməsi üzrə Proqramın hazırlanıb Nazirlər Şurasına təqdim edilməsinə məsuldur. Regional Planlaşdırma Şurası ildə bir dəfədən az olmayaraq toplanır. ECO Katibliyi təşkilatın fəaliyyətinin monitorinqini keçirir və koordinə edir, həmçinin fəaliyyət planına müvafiq olaraq müxtəlif tədbirlərin təşkilində iştirak edir. Katibliyin başında Baş Katib durur və Katiblik özü regional əməkdaşlığın aşağıdakı istiqamətləri üzrə fəaliyyətə rəhbərlik edən 6 direktoratdan ibarətdir: Nəqliyyat və kommunikasiya; Ticarət və investisiyalar; Energetika, mineral ehtiyatlar və ətraf mühit; Kənd təsərrüfatı və sənaye; Səhiyyə, təhsil və mədəniyyət; İqtisadi araşdırmalar və statistika. ECO Katibliyinin tərkibinə, həmçinin, Narkotik vasitələrin qanunsuz dövriyyəsinə nəzarət üzrə Koordinasiya Şurası, 6 regional təsisat (Ticarət və İnkişaf Bankı, Sığorta şirkəti, Gəmiçilik Şirkəti, Aviaşirkət, Ticarət Şirkəti, Sığorta üzrə Kollec) və 3 ixtisaslaşmış agentlik (Mədəniyyət İnstitutu, Elmi Fond və Konsaltinq Şirkəti) də daxildir.

ECO-nun məqsədləri onun Nizamnaməsində əsasən aşağıdakı kimi müəyyən edilmişdir: Üzv-dövlətlərin sabit iqtisadi inkişafı; Üzv-dövlətlər arasında ticarətin inkişafına mane olan baryerləri aradan qaldırmaq; ECO bölgəsinin dünya ticarətinin inkişafındakı rolunu yüksəltmək; İştirakçı ölkələrin dünya iqtisadiyyatına inteqrasiyasini təmin etmək; Üzv-dövlətləri birləşdirən nəqliyyat-kommunikasiya infrastrukturunu inkişaf etdirmək; İqtisadi liberallaşmanı və özəlləşdirməni həyata keçirmək; ECO bölgəsinin maddi ehtiyatlarından birgə istifadəni təmin etmək; ECO bölgəsinin aqrar və sənaye potensialından effektli istifadə etmək; Narkotiklərə nəzarət, ətraf mühitin qorunması və ECO bölgəsi xalqları arasında ənənəvi mədəni əlaqələrin möhkəmləndirilməsi üzrə regional əməkdaşlığı qurmaq; Digər regional və beynəlxalq təşkilatlarla qarşılıqlı mənfəətə əsaslanan əməkdaşlıq əlaqələri yaratmaq.

Qeyd edək ki, ECO katibliyi üzv-dövlətlərin ödədikləri üzvlük haqqıları hesabına yaranan mərkəzləşmiş büdcəyə sahibdir. Üzvlük haqqlarının tarif şkalası hər ölkə üçün ayrıca müəyyən edilir və dəyişə bilər. Məsələn, 1996-1998-ci illərdə təsisçi-dövlətlərin (Türkiyə, İran və Pakistan) üzvlük haqqları ümumi büdcənin 90 %-ni təşkil edirdisə, 2000-ci ildə bi rəqəm 66 %-ə enmişdir, yəni yeni üzvlərin ödədikləri üzvlük haqqı artıq 10 % deyil, 34 % olmuşdur ki, bu da onların iqtisadi inkişaf göstəricilərinin artmasından xəbər verir.[112]

**2. ECO Üzvlərinin İqtisadi, Ticarət, Enerji, Nəqliyyat Sahələrində Əməkdaşlığının Əsas Strategiyası**

ECO Üzvlərinin İqtisadi, Ticarət, Enerji, Nəqliyyat Sahələrində Əməkdaşlığının Əsas Strategiyası yuxarıda sadaladığımız məqsədlərə tam müvafiqdir. ECO bölgəsi hazırkı tərkibdə 400 milyona yaxın əhaliyə (dünya əhalisinin 6 %-i) və 7 milyon kv.km sahəyə sahibdir.[113] Bu da bölgənin nəhəng iqtisadi və sosial-humanitar potensialından xəbər verir. Başqa sözlə desək, ECO bölgəsi geosiyasi yerləşməsinə görə dünyanın aparıcı bölgələrindən biri sayıla bilər. Lakin digər tərəfdən, ECO-nun tərkibinə Əfqanıstan və Tacikistan kimi iqtisadi və sosial baxımdan aşağı inkişaf göstəriciləri olan ölkələr də daxil olduğundan, əməkdaşlığı bərabərtərəfli və tərəflərin hər biri üçün mənfəətli etmək üçün, bölgənin ciddi problemləri də vardır. Məsələn, ECO-nun coğrafiyası geniş olmasına baxmayaraq, bölgənin dünya ticarətində payı hələlik 2 % təşkil edir.[114]

Regional iqtisadiyyatın qurulması üçün strategiya elə seçilmişdir ki, bölgədaxili ticarət genişləndirilsin və bu prosesin normativ və maddi bazası təmin edilsin. Bunun üçün də xarici sərmayələrin cəlb edilməsi işi sürətləndirilmişdir. Üzv-dövlətlərdə investisiya qanunvericiliyi təkmilləşdirilmiş, dövlət müəssisələrinin özəlləşdirilməsi və investisiya axınının liberallaşdırılması artmışdır. Nəticədə bölgə əhalisinin adambaşına düşən gəliri son illər 54 % artırılmışdır (2002-ci ildə 4103 ABŞ dollarından 2008-ci ildə 6337 ABŞ dollarına qədər).[115] Qeyd edək ki, ECO çərçivəsində əməkdaşlıq üzv-ölkələrin suveren bərabərliyi, qarşılıqlı hörmət və əməkdaşlığı prinsiplərinə söykənir. ECO-nun iqtisadi, ticarət, enerji, nəqliyyat, həmçinin siyasi və mədəni əməkdaşlıq sahələrində fəaliyyəti təşkilatın üzv-dövlətlərinin dövlət başçılarının sammitlərində müəyyən olunur. Bu sammitlərdə ECO siyasətinin və strategiyasının reallaşdırılması şərtləri nəzərdən keçirilir və müvafiq qərarlar qəbul edilir. ECO üzvlərinin əməmkdaşlıq strategiyası ilə bağlı həmin sammitlərdə çox mühüm sənədlər, o cümlədən, Nəqliyyat Əməkdaşlığının İnkişafı üzrə Alma-Ata Planı (1993-cü il), Yenilənmiş İzmir Müqaviləsi (1996-cı il), Aşqabad Bəyannaməsi (1998-ci il) və digəriləri qəbul olunmuşdur. Bu görüşlər həm də regional və qlobal xarakterli problemlərin müzakirəsi və həlli üzrə forum səciyyəsi daşıyır. Bu mənada ECO-nun Tehran (2009) və İstanbul (2010) sammitlərini xüsusi qeyd etmək olar.

Hər iki sammitin başlıca mövzusu dünya iqtisadi böhranı və onun nəticələri məsələsi olmuşdur. X sammitin (Tehran) iştirakçılarının qəbul etdiyi Yekun Bəyanatda 2015-ci ilə qədər azad ticarət zonasının yaradılması üzrə əməkdaşlığın əsas tərəfləri öz əksini tapmışdır.[116] Təşkilatın 10 üzv-dövlətinin liderləri, həmçinin, birgə

---

[112] http://ru.reingex.com/Central-Asia-Business-Economy.shtml
[113] http://www.ecosecretariat.org
[114] Yenə orada
[115] Yenə orada
[116] http://tolishpress.org/news/627.html

bankın yaradılması, ixracat-idxalat əməliyyatlarının asanlaşdırılması, bölgə ölkələri arasında əmtəə mübadiləsinin genişləndirilməsi haqqında təklifləri də alqışlamışlar. Bundan əlavə, Yekun Sənədində korrupsiyanın və qanunsuz yolla əldə edilmiş pulların leqallaşmasının qarşısının alınması, enerji sektorunda əməkdaşlığın genişləndirilməsi, müxtəlif yarmarkaların keçirilməsi yolu ilə özəl sektorun inkişafının sürətləndirilməsi, qlobal iqtisadi böhranın nəticələrinin yüngülləşdirilməsi üçün əməkdaşlığın qurulması kimi vızifələr də öz əksini tapmışdır.[117] Tehran sammitinin iştirakçıları regional layihələrin həyata keçirilməsinin sürətləndirilməsi, xüsusilə Qəzvin – Rəşt – Astara, Qars – Tiflis – Bakı, Qazaxıstan – Türkmənistan – İran dəmir yolu magistrallarının çəkilişinin zərurəti haqqında da birgə rəyə gəlmişlər.

XI sammit Türkiyənin İstanbul şəhərində 2010-cu ilin dekabrında keçirilmişdir və yaddaqalan olmuşdur. Sammitə sədrlik edən Türkiyə Prezidenti Abdullah Gül öz çıxışında ECO ölkələrinin aralarında ticarət dövriyyəsinin həcminin 10 %-ə çatdırılması ilə bağlı planların yerinə yetirilməməsi, bu rəqəmin 7 % olması ilə bağlı narahatlıq keçirdiyini bildirmiş, Türkiyə ilə Pakistan arasında azad ticarət haqqında sazişin (dekabr, 2010) digər üzv dövlətlər arasında bağlanmasının vacibliyini qeyd etmişdir.[118] Türkiyə Prezidenti, həmçinin, ölkəsinin Asiya İnkişaf Bankının və “ECO Bank”ın tərəfdaşları olmaq arzusunda olduğunu bildirmişdir. Bununla əlaqədar, İstanbul – Tehran – İslamabad dəmir yolunun yenidən istismara verilməsinin vacibliyini, bu nəqliyyatın ECO üzvləri arasında əlaqələri daha da möhkəmləndirəcəyinə əminliyini bildirmişdir. İstanbul sammitinin yadda qalan məqamlarından biri də Azərbaycanın, Türkiyənin və İranın xarici işlər nazirlərinin üçtərəfli görüşünün keçirilməsi olmuşdur. Görüşdən sonra birgə bəyanatla çıxış edən nazirlər ölkələr arasında tarixi, mədəni, iqtisadi, dostluq münasibətlərinin saxlanması, bölgədə və dünyada sülhün və təhlükəsizliyin təmini, “dondurulmuş münaqişələr”in nizama salınması kimi məsələlərdə ECO üzvlərinin birgə fəaliyyətinin vacibliyini xüsusi qeyd etmişlər.[119]

### 3. Türk Dövlətlərinin ECO-da İnkişaf Perspektivləri

ECO Xəzər hövzəsi və Fars körfəzi bölgəsində həyata keçirilən qlobal enerji layihələrini, o cümlədən TRASECA, İNOGATE, Bakı – Tiflis – Ceyhan Əsas Neft İxracı Kəməri kimi layihələri əhatə edən coğrafiyaya sahib olmaqla böyük strateji əhəmiyyətə malikdir. Lakin ECO-nun daha bir özəlliyi də var ki, Türk Dünyası üçün daha böyük önəm kəsb edir: ECO-nun 10 üzvündən 6-sı Türk dövlətidir! Bu iqtisadi təşkilatın yuxarıda sadaladığımız güclü sütunlara sahib olduğunu nəzərə alsaq, fikrimcə, Avrasiyanın regional inteqrasiyası yaxın gələcəkdə Türk dünyasının xeyrinə istiqamət alacaqdır. Bunun üçün Türkiyənin, Azərbaycanın, Qazaxıstanın, Qırğızıstanın, Türkmənistanın və Özbəkistanın həm iqtisadi imkanları, həm güclü geostrategiyası, həm də ümumi maraqları kifayət qədərdir.

ECO-nun təsisçilərindən olan Türkiyə Respublikası bu təşkilatın daxilində digər türk dövlətləri ilə əlaqələrə xüsusi önəm verir. Bu gün Avrasiyanın iqtisadi, sosial, siyasi, demokratik, mədəni inkişaf baxımından aparıcı dövlətlərindən olan Türkiyə ECO bölgəsində güclü iqtisadi və ideoloji mövqelərə sahibdir. Ələlxüsus bu, ECO-nun üzvü olan türk dövlətlərinə aiddir.

Qafqazın sənayenin inkişafı nöqteyi-nəzərindən birinci ölkəsi olan Azərbaycan Respublikası ECO daxilində çox böyük potensiala sahib ölkədir. XI İstanbul

---
[117] http://tolishpress.org/news/627.html
[118] www.podrobnosti.ua/economy/2010/12/23/7
[119] Yenə orada

sammitində Azərbaycan Prezidenti İlham Əliyevin də çıxışında qeyd etdiyi kimi, "regional əməkdaşlığa böyük önəm verən Azərbaycan ... iqtisadi imkanlarını cəm edərək bu genişmiqyaslı əməkdaşlığa böyük töhfəsini vermişdir".[120] İri neft və qaz yataqlarına sahib olan Azərbaycan 7 boru kəməri vasitəsilə öz ehtiyatlarını dünya bazarına çıxarmaq imkanına malikdir, eyni zamanda, qonşu dost dövlətlərin enerji sahəsində tələblərini də ödəyə bilir. "Azərbaycanın iştirak etdiyi layihələr bölgədə yeni nəqliyyat infrastrukturunun yaranmasına imkan vermişdir".[121] Bakı – Tiflis – Qars dəmir yolunun çəkilişinə böyük önəm verən Azərbaycan ECO üzvlərinin də bu layihədən yararlanacağına ümid edir.

Qazaxıstan Respublikası həm ərazisinə, həm enerji ehtiyatlarına görə nəhəng bir coğrafi məkandır və ECO üçün onun önəmi böyükdür. Bu dövlət həm də güclü aqrar potensiala malikdir və bölgənin ərzaq təminatı üçün xüsusi əhəmiyyət kəsb edir. Qırğızıstan Respublikası ənənəvi olaraq kənd təsərrüfatı ölkəsi sayılır. Bununla yanaşı, XX yüzilliyin sonlarına doğru bu respublika əlvan metalların hasilatı, yüngül sənaye məhsulları, su elektrik sənayesi kimi sahələrdə də irəliləyişlər qazanmışdır. Qırğızıstan, həmçinin, kömür, az miqdarda da neft və qaz yataqlarına sahibdir. Türkmənistan enerji layihlərində fəal iştirakına görə seçilir, hərçənd ki, ölkənin infrastrukturundan aqrar sektor daha böyük yer tutur. Pambıq istehsalına görə Türkmənistan hazırda dünyada 10-cu yerdə durur. Özbəkistana gəlincə, bu respublikanın əsas təbii ehtiyatı pambıq sayılır. Ölkə pambıq lifi istehsalına görə dünyada 4-cü yeri tutur. Bundan əlavə, Özbəkistan böyük həcmdə qaz istehsal edərək onu Mərkəzi Asiyaya, MDB ölkələrinə və Avropaya ixrac edir. Özbəkistan nəhəng enerji sisteminə malikdir. Özbəkistan həm də Orta Asiyanın əhalisinin sayına görə (26 milyon nəfər) ən iri dövlətidir.[122]

Qısa icmaldan da göründüyü kimi, Türk dövlətləri ECO-nun iqtisadi, sosial, enerji, nəqliyyat-kommunikasiya sistemində aparıcı qüvvədir. Bu qüvvənin güclənməsi, iştirakçısı olduğu nəhəng transmilli layihələrdə (TRASECA, İNOGATE, "Böyük İpək Yolu") fəaliyyətinin genişlənməsi üçün ikitərəfli və çoxtərəfli əlaqələr zəruridir.

**Sonuç**

Bu gün dünya ictimaiyyəti separatçılıqdan, etnik qarşıdurmalardan, lokal münaqişələrdən böyük əziyyət çəkir. Dünyanın aparıcı strateqləri, dövlət xadimləri və siyasətçiləri, müxtəlif tədqiqat mərkəzləri dünyanı bu qalmaqallardan, qarşıdurmalardan xilas etmək yollarını axtarır. İndiyədək tapılmış ən uğurlu çıxış yolu isə regioanl və beynəlxalq inteqrasiya sayılır.

Məruzənin əvvəlində də qeyd etdiyimiz kimi, dünyada mütləq mənada pozitiv olmadığı üçün, çıxış yolu olaraq göstərilən və həyata keçirilən inteqrasiya və qloballaşma da qüsurlardan, nöqsanlardan xali deyil. Prosesin ən təhlükəli tərəfi – ölkələrin iqtisadi sərbəstliyinin itirilməsi, dövlətlərin bir-birindən ticarət, enerji və hətta siyasi baxımdan asılılığa düşməsi, xalqların milli dəyərlərdən uzaqlaşması sayılır.[123] Şübhəsiz, mövcud əksər regional və beynəlxalq təşkilatlar daxilində bu təhlükələr mövcuddur. Lakin düşünürəm ki, ECO elə bir iqtisadi gücdür ki, onun üzvü

[120] www.president.az/articles/1288?locale=ru
[121] Yenə orada
[122] Orta Asiya respublikalarının iqtisadi inkişaf göstəriciləri haqqında bax: http://ru.reingex.com/Central-Asia-Business-Economy.shtml
[123] Ətraflı bax: Aydın M. New Geopolitics of Central Asia and the Caucasus. Causes of Instability and Predicament, Ankara, Center for Strategic Research, 2000

olan 6 türk dövləti üçün bu yuxarıda sadaladığımız təhlükələri doğurmur. Bu təşkilat çərçivəsində türk dövlətləri üçün ən azından milli dəyərləri itirmək təhlükəsi yoxdur. Çünki onları həm etnik, dil, həm din, həm mədəniyyət birliyi bağlayır. Bu səbəbdən də ECO Strategiyasında nəzərdə tutulmuş fəaliyyət Proqramlarının tam miqyasda həyata keçirilməsi, onun üzv dövlətlərinin ümumi mənfəətindədir.

**QAYNAQLAR**

1. AYDIN M. New Geopolitics of Central Asia and the Caucasus. Causes of Instability and Predicament, Ankara, Center for Strategic Research, 2000
2. HƏSƏNOV, Ə.M., Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti, Bakı, “Azərbaycan” nəşriyyatı, 2005
3. QASIMLI, M.C., Azərbaycanın xarici siyasəti (konsepsiya məs’ələri), Bakı, “Mütərcim”, 1997
4. QUSEYNOV, V.A. Geopolitiçeskaya rol Sredizemnomorsko-Kaspiyskoqo regiona, Sredizemnomorye – Çernomorye – Kaspiy: mejdu Bolşoy Yevropoy i Bolşim Blijnim Vostokom, Moskva, “Qranitsa”, 2006, s.9-21
5. Kratkiy politiçeskiy slovar, Moskva, “III tısyaçeletiye”, 2001
6. VORKUNOVA, O.A. Sredizemnomorye – Çernomorye – Kaspiy: “poqraniçye” v mirovoy politike, Sredizemnomorye – Çernomorye – Kaspiy: mejdu Bolşoy Yevropoy i Bolşim Blijnim Vostokom, Moskva, “Qranitsa”, 2006, s.43-50
7. http://www.ecosecretariat.org
8. www.podrobnosti.ua/economy/2010/12/23/7 (Erişim tarihi: 23.12.2010)
9. www.president.az/articles/1288?locale=ru (Erişim tarihi: 23.12.2010)
10. http://ru.reingex.com/Central-Asia-Business-Economy.shtml (Erişim tarihi: 12.02.2008)
11. http://tolishpress.org/news/627.html (Erişim tarihi: 15.03.2009)
12. http://www.vestikavkaza.ru/news/politika/kabardino-balkaria/30723.html (Erişim tarihi: 23.12.2010)

## (11)
## TÜRK DÜNYASI ENERJİ PROJELERİ VE MODERN DÜNYA

**Xoşqedem İSLAM**
**Bakı Dövlet Universiteti, araştırmaçı, tarih elmi uzre doktor**

Dünyada ispatlanmiş olan petrol kaynaklarının yüzde 3,5-i, qaz kaynaklarının ise yüzde 6,8-i Türk dünyasının 3 ölkesine-Türkmenistan, Azerbaycan, Kazaxıstana məxsusdur. 21.11.94 tarihinde Azerbaycan ortak enerji projesini -Konsorsiyum (AİOC- Azerbaijan İnternational Operating Company) yapmışdı. Bakı-Tiflis -Ceyhan petrol boru hattı və Bakı-Tiflis-Erzurum doğal qaz boru hattı projesi Türk dövletlerinin inteqrasiyasında önemli projelerdendir.

Enerji kaynaklarına sahib olması ve bu kaynakların tüketim merkezlerine ulaşım yollarında bulunması Türk dünyası üçün önemli avantajlardir. 2014-cü yılda fealiyyete başlanmasi nezerde tutulan, uzunluğu 3300 km-lik, maliyyeti 7.9 milyar Avro olan Nabucco projesi ile Türk dünyası böyük gücler arasındakı pakabetleri kullanarak, dünya siyasetinde aparıcı rol oynamaq iqtidarında olacaqdır. Başka bir enerji projesi ise Türkiye ve Naxçıvan arasındakı enerji ve qaz hattıdır.

Rusiya Nabucco projesinin heyata keçirilmesine mane olmaq üçün South Stream boru hattı projeleri eliştirmektedir. Çin ise Orta Asiyadakı enerji kaynaklarına el koymakdadır.

Xoşqedem İslam
Bakı Dövlet Universiteti, araştırmaçı
Bakı, Binegedi rayonu, 7 m\r, ev 14, menzil
50.Tel: 0707129438

**Türk dünyası- enerji projeleri ve modern dünya**

Enerji kaynaklarına sahib olması ve bu kaynakların tüketim merkezlerine ulaşım yollarında bulunması Türk dünyası üçün önemli avantajlardir. Dunyada mövcud olan petrol qaynaqlarının yuzde 3.5-i, qaz qaynaqlarının ise yuzde 6.8-i Türkmenistan, Azerbaycan ve Kazaxıstana məxsusdur. Bakı-Tibilisi-Ceyhan petrol boru xətti və Bakı-Tiblisi-Erzurum doğal qaz xətti Türk dövletlerinin inteqrasiyasında önemli projelerdendir. Şahdeniz yatağının işlenmesi ve Bakü-Tiflis-Erzurum doğal gaz hattının işletmeye açılması global NABUCCO projesinin ortya çıkmasına neden oldu. Bu proje ile Türk dünyası böyük gücler arasındakı pakabetleri kullanarak, dünya siyasetinde həm ekonomi, həm də siyasi cəhətdən quvvətlənib, önəmli rol oynaya bilər.

**Turkish world-energy project and contemporary world**

Today energy consumption as the main source very important following, energy source is being consumpted to the world market is giving advanced for the turkish world. Energy resource are presented in the world as petrolium oil source one hundred 3.5, gas energy about, one hundred 6.8-Turkmenistan, Azerbaijan and also

Kazakhstan, this countries is presented. Such project as Baku-Tbilisi-Ceyhan and Baku-Tbilisi-Erzurum natural gaz piplinie for turksh world very important for integration. Shashdeniz field project and Baku-Tibilisi-Erzurum natural gaz pipeline and opening the global project Nabucco are entire comming to essentials.

Xoşqedem İslam
Bakı Dövlet Universiteti, araştırmaçı,
tarih üzre felsefe doktoru

## Türk dünyası- enerji projeleri ve modern dünya

2009-cu ildə British Petroleum tərəfinden açiqlanmaya görə Türkmenistan, Azerbaycan, Kazaxıstanını məxsus olduğu petrol qaynaqları 50 milyardır. Bu isə dunyada mövcud olan petrol qaynaqlarının yuzde 3.5 dir. Qaz qaynaqlarının ise 12.5 trilyon metredir. Bu ise qaz qaynaqlarının yuzde 6.8dir. Musteqilliklerini elan etdikden sonra bu dövletler öz servetlerini yeterli qeder deyerlendire bilmirler. Xezer denizi etrafında Turk dövletlerinden elave Rusiya ve İran kimi guc dövletleri 1990-cı ilden musteqilliyine qovuşan dövletlere öz tesirlerini azaltmirlar. Bu tesiri azaltmaq Turk dövletlerinin qarşısında duran en önəmli mesele idi. Bu tesiri azaltmaq uçun ilk növbede enerji qaynaqlarının axtarişında, texnoloji yeniliklərin tetbiqinde musteqil olmaları şertdir, daha sonra enerji qaynaqlarını dunya bazarına çıxarmaq imkanı artir. Bunun uçun böyuk petrol şirketleri ilə elaqə yaratmalı, öz gelirlerini artıra bilərler. 90-cı illərin əvvəllərindən zengin qaz qaynağına malik olan Kazaxıstan, elece de Türkmenistan və Azerbaycan bir sıra enerji şirketleri ilə-Shell, Total, BP, Eni, Conoco Philips , Statoyl, AMOKO, və s ortaq olmuşdur. Lakin bu dövlətlər uçun önəmlisi dunya bazarına cıxmalarının özəl olmasındadır. Turk dövletleri enerji qaynaqlarını Avropa, Çin, Hindistan və Rusiya bazarına çixara biler, amma, yalnız Rusiyaya çıxara bilir. Elbette, Rusiya da bundan istifade edir.

XXI əsrin əvvəllərindən ekonomi artımla bağli olararq Çin enerji ehtiyaclarını artırmaq ehtiyacı duydu. Bu sebebden de ona daha yaxın Orta Asiyaya uz tutdu ve isteklerinə nail oldu və Türkmenistanla anlaşma yapdı. Bağlanmış anlaşmaya əsasen 2014-cu ilden etibaren 2200 kmlik qaz xətti –(China National Petroleum Corporation) Çinə 40 milyar metre qaz ixrac edecekdir. 90-cı illerden Türkmenistan öz qazını Rusiyaya 50 dolara satdığı halda, Rusiya Avropaya bu qazı 250 dolara satır. Bu ise Türkmenistan ucun ne qeder gelir itirdiyini aşkarlyır. Çinin Orta Asiya siyaseti Avropanın diqqetinden yayınmadı. Hələ XIX əsrin əvvəllərinden bu region İngilterenin marağinda idi və Rusiya ile bu meselede gerginlik yaşayırdı. AB əsasən qazı Rusiyanın "Qazprom"undan ixrac etdiyindən daha bahalı alır. Bu narahatlığı aradan qaldırmaq uçun AB-in Orta Asiya ve Azerbaycanla anlaşma qurmaq isteyi artmaqdadır. 2008-ci il ekonomi krızdan sonra AB-nin maraqları Turk dövletlerinə artmışdır. Bu sebebden Turkiyəni maraqlandıran "Nabucco" boru xettinin çəkilmesi uçun AB canfeşanlıq gösterir. "Nabucco" layihəsi uzrə hansı qaz mənbələrindən istifadə ediləcəyi tam bəlli olmadığından 2010 –cı il mayın 22-27-də Almaniyanın paytaxtı Berlin şəhərinde NATO Parlament Assambleyasının yaz sessiyasında bu məsələ muzakirəsi keçirildi. Sessiyada "Nabucco" layihəsinin iştirakçıları- Avstriya, Turkiyə, Bolqarıstan, Macarıstan, Rumıniya və Almaniya şirkətləri iştirak edir və danışıqlarda Avropa Birliyi Turkmənistanın "Nabucco" layihəsində Xəzərin delimitasiyası olmadan qoşulmasına dair plan hazırladı. APA-nın "Kommersant" qəzetinin məlumatına görə Brussel Turkmənistanla Azərbaycan arasında qaz boru

kəmərinin inşasına dair sazişin prototipi ola bilecek sənəd hazırlamışdır. Bu layihə Turkmənistan ucun çox aktualdır. Ekspertlər hesab edir ki, Transxəzər qaz boru kəməri və “Nabucco” layihəsi Turkmənistan qazını Avropaya aparacaq qısa və ucuz yoldur. Rusiya isə Xəzərin delimitasiyası olmadan Transxəzər qaz boru kəmərinin çəkilişinə razıliq verməyəcəkdir. Amerikali ekspertlər isə hesab edir ki, qaz çatışmazlığı ve siyasi gərginliklər bu layihənin reallaşmasına mane olacaqlar, xususilə, İran-ABŞ munasibetlerindeki gərginlik bu prosesə mane olacaqdır. 2014-cü yılda fealiyyete başlanması nezerde tutulan, uzunluğu 3300 km-lik, maliyyeti 7.9 milyar Avro olan Nabucco projesi ile Türk dünyası böyük gücler arasındakı rəkabetleri kullanarak, dünya siyasetinde aparıcı rol oynamaq iqtidarında olacaqdır. Bu boru xetti ile AB-ə hər il 31 milyar metre qaz ixrac nezerde tutulmuşdur. Lakin anlaşma muzakire olunduqda melum oldu ki, Azərbaycanın qaz qaynağı boru xətti uçun yeterli olmayacaq. AB Türkmenistanla aparılan danışıqlarda bu dövləti də layihəyəyə qoşulmağı teklif edir. Danışıqlar zamanı AB Türkmenistana bu addım uçun min metre kup qaz uçun 250 dolar ödəyəcəyini vurğulamişdır. 2009-cu ildə Rusiyanın türkmən qazının alınmasını boykot etməsinden sonra Türkmenistan, 2010-cı ilde Aşqabad konfransında “Nabucco” boru xetti uçun 49 milyar metre kup qaz ayıracağını açıqladı.

Dunya dövletlerinin XXI əsrin əvəllərinden enerji qaynaqlarına olan ehtiyacı artdığından bu enerji qiymetlerine de tesir göstermişdir. AB “Nabucco” layihəsi kimi layihələrə diqqet ayırmaqla Rusiyanın tesir gucunu azaltmağa çalışır. Rusiya isə tarixən idarə etdiyi erazilərdə təsirini azaltmaqla razilaşmadığından bu kimi layihələrin gerçəkləşməsinə sərt yanaşır. “Nabucco” layihəsinə rəqib olan “South Stream “ adlı layihəsi irəi surmuşdur. Böyuk guc dövlətəri arasında reqabetlerden isə Turk dövlətləri öz xeyrinə istifadə etməklə, gəlirlərini artırmalıdırlar.

Xəzər dənizinin statusu məsələsi hələ də muəyyən olunmayıb. Bu səbəbdən Rusiya donanması serbest enerji qaynaqlarını zebt edir. Qeyd olunmalıdır ki, Xəzər dənizində 200 milyar varil səviyyəsində petrol rezevinə malik olan çox hissəsi Azərbaycana aiddir və bu məsələdə dövlətlərarası munasibətləri pozmamaq şəti ilə huquq normalarına rayət olunmasını teleb etmişdir. Bu tartışma digər Xəzəryanı dövlətlər arasında da yaşanır. Rusiya isə “sakitlikle” öz mənafeyini daha bir proje ilə- Qara dənizə çıxmaqla yerinə yetirir. Volqa-Don kanalına əlavə yeni projrlər aramaqdadir. Rusiya bilir ki, Turkiyə“Nabucco” layihəsi ilə Avropaya sıxılmiş qaz gətiricisi olan qapıdır. Avropa da Erzurumla-Vyananı bağlayacaq bu layihəni israrla həyata keçirmək istəyir. Rusiya isə Bolqarıstandan keçəcək Guney Akım layihəsini həyata keçirmekde israrlıdır. Turkmən qazının Turkiyəyə daşıyacaq Nabucco boru xətti Turkiyənin doğal qaz alışında dönuş yarada bilər-həm ekonomi, həm də siyasi cehetden. Bu baxımdan Amerika və Avropa siyasiləri layihəyə bir qədər ehtiyatla yanaşırlar.

1997-ci ildə Turkiyə-Rusiya arasında bağlanmış anlaşmaya esasən Qara dənizdən Samsuna, qərbdən isə Bolqarıstandan keçən Mavi Akım boru xətti çəkildi. Turkiyə bu anlaşmaya uyğun olaraq doğal qazın yuzdə 63-nu, petrolun da yuzdə 29-nu Rusiyanın “ Qazprom”undan alır. Digər ehemiyyətli məsələ Turkiyə-İran muhasibətləridir ki, bu munasibətlərin sabit saxlanılmasi önəmlidir. Çunki bu dövlətlər arasında hər hansi gərginlik yaşanarsa, Nabucco layihəsi baş tutmaya bilər. Boru xəttinin İran ərazisindən transfer edilməsi Turkiyəni, eləcə də, Turk dövlətlərinin bu məsələyə ciddi yanaşmasını tələb edir.

21.11.94 tarihinde Azerbaycan ortak enerji projesini -Konsorsiyum (AİOC-Azerbaijan İnternational Operating Company) yapmışdı. Bu projinin anlaşma suresi 30 ildir. Projeyə görə 42 milyar petrol, 70 milyar m3 qaz ixracatı nezerde tutulmuşdur. Azərbaycanda bu gunə qədər 67 petrol və qaz yatağı keşf edilmişdir. 1994-cu ildən indiyədək 33 xarici şirkətlə 28 neft-qaz anlaşması yapdı. 2006-cı ildə Azərbaycanda 32 milyar ton neft çıxarılmışdır. SSRİ dönəmindən qalan Novorosiysk boru xətti Azərbaycanın digər dövletlere çıxışını mehdudlaşdırdığından yeni bazarlara çıxış yollarının aranmasi Azərbaycan dövlətini muxtəlif layihələr aramağa sövq edirdi. Turkiyə ilə Azərbaycan arasında 2 muhum enerji projesi imzalandı: Bakı-Tibilisi-Ceyhan petrol boru xətti və Bakı-Tiblisi-Erzurum doğal qaz xətti. Hər iki boru hattı projesi Türk dövletlerinin inteqrasiyasında önemli projelerdendir. Uzunluğu 1767 km-lik olan Bakı-Tiflis -Ceyhan petrol xətti Turkiyənin Kerkuk-Yumurtalıq boru xəttindən sonra gerçəkləşdirdiyi ikinci önəmli projedir. 2007-ci il sentyabrın 1-ə olan məlumata görə BTC kəmərinə 18 milyon 864 min ton neft vurulmuşdur. Umumilikde, istismara verildiyi gundən (2006) BTC vasitəsilə 28 milyon 133 min ton neft ixrac olunmuşdur. BTC kəməri Orta Asiya neftinin dunya bazarına çıxarılmasına imkan verdi. 2007 avqust ayında Azerbaycan prezidenti İ.Əliyev Qazaxıstana rəsmi səfəri zamanı ARDNŞ və Qazaxıstanın neft şirkəti "KazMinayQaz" arasında 2 sənəd imzaladılar. Neft-qaz sahəsində emekdaşlıq və Transxəzər layihəsinin gerçəkləşdirilməsi haqda memorandum imzalandı. Bununla da Azerbaycan yalnız neft ixracatçısı kimi yox, həm də tranzit ölkə kimi tanındı. 2007 ildən itibaren Şahdeniz gazının Bakü-Tiflis-Erzurum doğalgaz hattıyla nakline başlandı. Doğalgazın ilk alıcıları Gürcustan ve Türkiye oldu. Bu zaman 136,9 milyon m3 Gurcustan, 258milyon m3 Türkiyeyə qaz ixrac edilmişdir. Həmən ilde Azerbaycan, Turkiyə və Yunanıstan arasında danışıqlar zamanı Turkiyə - Yunanıstan qaz kəmərinin açılışı oldu və Azerbaycan qazı Yunanıstana öturməyə başladı. Başka bir enerji projesi ise Türkiye ve Naxçıvan arasındakı enerji ve qaz hattıdır. Böylece 2007 yılından itibaren Azerbaycan sadece petrol ihracatçısı değil, hem de gaz ihracatçısı olarak tanınmaya başladı. Avrupa'ya yönelen bu enerji yolları Azerbaycan'ın uluslararası bütünleşmeye, eski İpek yolunun restorasyonu gibi uygarlıklar diyalogu düşüncelerine yaptığı eşsiz katkılardır. Bununla Azerbaycan çıkarttığı doğal kaynakları satmaya başladı, həm də petrol gelirlerini artırmaya başladı. En önəmlisi isə Rusiyadan başqa enerji ixrac edəcək digər guclu ölkə tapdı. Azərbaycanın Rusiya və İrana yönəlik qaz ixracı siyasəti Qərbdə rəsmi Bakıya qarşı bir inamsızlıq hisləri oyatmışdı. Hətta bəzi Qərb analitikləri Azərbaycanın türkmən qazının tranzitində maraqlı olmadığı və bunun qarşısının alınması üçün Bakı ilə Moskva arasında hansısa «centlmen razılaşmasının» olması haqda fikirlər belə söyləyirdilər. Tarixi araşdırmardan aydın olur ki, Rusiya qaz ixracatında muəyyən dövrleşmelerle "qaz kəsmələri", "qaz ixracatını azalatmaları" kimi tepkilərlə öz siyasətinin iç uzunu biruzə veren dövletdir. Bu baxımdan Turkiyə ilə Turk dövlətləri arasında enerji projelərinin reallaşması şertdir. Bundan əlavə qeyd edilməlidir ki, Turkiyə ən ucuz qazı Azərbaycandan alır. Enerji kaynaklarına sahib olması ve bu kaynakların tüketim merkezlerine ulaşım yollarında bulunması Türk dünyası üçün önemli avantajlardir. 2014-cü yılda fealiyyete başlanmasi nezerde tutulan, uzunluğu 3300 km-lik, maliyyeti 7.9 milyar Avro olan Nabucco projesi ile Türk dünyası böyük gücler arasındakı pakabetleri kullanarak, dünya siyasetinde aparıcı rol oynamaq iqtidarında olacaqdır. Şahdeniz yatağının işlenmesi ve Bakü-Tiflis-Erzurum doğal gaz hattının işletmeye açılması global NABUCCO projesinin ortya çıkmasına neden oldu. Bu proje uyarınca Hazar'ın

doğusunda bulunan Kazakistan ve Türkmenistan'ın mavi yakıt rezervlerinin Avrupa ülkelerine taşınması öngörülüyor. Bunun için kurulan Nabucco Gas Pipeline İnternational Firması Hazar'ın dibine Trans-Hazar doğal gaz hattını döşemeli, onu Bakü-Tiflis-Erzurum doğal gaz hattıyla birleştirerek gazın Avrupa'ya ulaşmasını sağlamalıdır. Değeri 7.4 milyar ABD doları olan hattın 2010 yılında inşasına başlanması nəzərdə tutulur. Kəmər işə düşəndə Türkiyenin 8-10 milyard kubmetr qazı olacaq. Başka bir enerji projesi ise Türkiye ve Naxçıvan arasındakı enerji ve qaz hattıdır. Enerji kaynaklarına sahib olması ve bu kaynakların tüketim merkezlerine ulaşım yollarında bulunması Türk dünyası üçün önemli avantajlardir.Bununla həm ekonomi, həm də siyasi cəhətdən Turk Dunyası quvvətlənib, dunya siyasətində önəmli rol oynaya bilər.

**Ədəbiyyat siyahısı**:

1.Nəsirov E. Azərbaycan neft və beynəlxalq muqavilələr(1991-1999), Bakı:1999

2.Mehdiyev R. Azərbaycan 2003-2008:zaman haqqında duşunərkən, Bakı:2009

3. Mehdiyev R. Yeni siyasət:inkişafa doğru.c.1,2, Bakı:2008

4.Həsənov S. Dövlətlərarası munasibətlərdə Xəzərin statusu məsələsi, Bakı:2002

5.Turkiye ve Azerbycan, Kazakıstan, Kırgızstan Bilim Akademileri ortaq toplantısı. Ankara,2001

TURAN-SAM * YIL: 2011 * CİLT: 3 * SAYI: 12 * SONBAHAR 2011
TURAN STRATEJİK ARAŞTIRMALAR MERKEZİ DERGİSİ
www.turansam.org

**(12)**

# RUSYA İMPARATORLUĞUNUN KUZEY AZERBAYCAN'DAKİ SÖMÜRGE POLİTİKASININ ANTİTÜRK VE ANTİMÜSLÜMAN MAHİYETİ

**Doçent doktor Mehman Abdullayev***

## ÖZET

Sovyet dönemi tarih bilimciliğinde Kuzey Azerbaycan'ın Rusya tarafından işgali ve buradaki sömürge politikası ile ilgili var olan gerçeği yansıtmayan bilimsel konsept şekillenmiş ve güya XIX. yüzyılın başlangıcında bağımsız olarak yaşayamayan Azerbaycan'ın, İran ve Türkiye gibi "geri kalmış" ülkelere oranla Rusya ile "birleşmesi" "daha az bela" olduğu savı ileri sürülmüştür. Sonralar ise, "birleştirilme" konsepti "katılma" ile değiştirilmiştir.

Şunu da kaydedelim ki, sözkonusu süreç, XIX. yüzyıl Rus Kafkasya bilimciliğinde Sovyet dönemine oranla daha doğru takdim edilmiş ve gerçek adıyla "işgal" olarak isimlendirilmiştir.

Rusya'nın Kuzey Azerbaycan'ı işgali, 1801 yılında Doğu Gürcistan'ın birleştirilmesinden sonra başlamış ve 1828 yılında İran'la Rusya arasında imzalanmış Türkmençay anlaşması ile sonuçlanmıştır. İşgal ve sonraki Çarizm döneminde, Güney Kafkasya bölgesinin büyük kısmını içine alan Azerbaycan topraklarında güçlenmek amacıyla sömürge politikası izlenmiştir. Türk ve Müslüman halka karşı doğrultulan bu politikanın asıl mahiyeti, burada Hıristiyan halktan oluşan toplumsal destek yaratmaktan ibaretti. Ermenilerin Kafkasya'ya naklettirilmesi ve bizzat Türk topraklarına yerleştirilmesi bu amaca hizmet etmekteydi. Şöyle ki, buraya nakledilen Ermenilerin bir kısmı İrevan Hanlığı topraklarına yerleştirilerek, bu bölgede sonralar kurulacak Ermeni devletinin temeli olan "Ermeni Vilayeti" oluşturulmuştur. Karabağ'da Ermeni halkının sayısının göçmenler sayesinde artırılması da bu siyasetin bir parçasıydı. Fakat Türk halkı yalnız kendi topraklarını kaybetmiyor, aynı zamanda haklarından da mahrum bırakılıyordu.

Böylece dayandığımız arşiv belgeleri Rusya İmparatorluğunun Kafkasya'yı işgal ettiği ilk günlerden yerli Müslüman Türk halkına karşı maksatlı tavır takındığı, bölgede uyguladığı sömürge politikasının daha fazla bunlara karşı doğrulttuğunu onaylamaktadır.

**Anahtar kelimeler**: Rusya imparatorlugu, Kuzey Azerbaycan, çarizm, sömurge politikası.

## ABSTRACT

Conquest of Northern Azerbaijan by Russian Empire and conquer policy of Russian in Soviet historiography. There is need to mark that Russian Caucasian in XIX hundred the process is given more objectively and called "most less area".

The conquest of Northern Azerbaijan from the Russian begins since 1801 year by with gaining of Eastern Georgian and completed by Turkmanchai treaty in 1828 year, between Iran and Russian.

For justifying in Azerbaijan soils Russian charism adjusted here economy policy.

The main problem of this policy which was pointed against turk and muslim population consist of education, social-supports among christian population.

---

* Bakü Devlet Üniversitesi, Azerbaycan Tarihi Bölümü Başkanı

Immigration armenian to the turk places were a part of policy. Overpopulated armenian frequently justified in territory of Northern khanst. In aftermath created the basically for armenian state – "armenain district"

Multiplicity of armenian population in Karabakh zone to overpopulate them was also the part of their policy.

So here archive document based the relationship of Russian charism with turkish population and muslim pointed to the basically against them.

**Key words**: Russian Empire, Northern Azerbaijan, charism**, colonial policy.**

## GİRİŞ

Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı və bu bölgədə müstəmləkəçilik sisteminin qurulması problemi ilə bağlı sovet dövrü tarixşünaslığında düzgün elmi konsepsiya mövcud olmamışdır. Həmin proses hətta XIX əsrin rus qafqazşünaslarının əsərlərində sovet dövrü ilə müqayisədə daha düzgün əksini tapmış, öz adı ilə «işğal», «ilhaq» adlandırılmışdır. XX əsrin 20-30- cu illərində sovet tarixşünaslığında bu hadisəyə «daha az bəla» prizmasından baxılaraq belə nəticə çıxarılmışdı ki,guya Azərbaycanın XIX yüzilliyin başlanğıcında müstəqil yaşaması üçün tarixi şərait olmamışdır[124]. Sonrakı dövrlərdə «işğal», «ilhaq» terminləri bir qədər yumşaldılaraq «birləşdirilmə» termini ilə əvəz edilmişdir. XX əsrin 40-50-ci illərində tarixşünaslığımızda kök salmış başlıca «konsepsiya» Şimali Azərbaycanın Rusiyaya birləşdirilməsinin iqtisadi, siyasi, mədəni və b. sahələrdə mütərəqqi əhəmiyyət daşıdığını əsaslandırmağa xidmət edirdi[125].

Azərbaycanın 60-cı illər sovet tarixşünaslığında radikal görünən «birləşdirilmə» konsepsiyasının daha yumşaq «tərkibinə daxil olma» formulası ilə əvəz olunması daha çox siyasi sifarişin nəticəsi sayılmalıdır[126]. Buna baxmayaraq elə həmin 60-cı illərin sonlarında bir qrup vətənpərvər alim bu problemə obyektiv tarixi gerçəkliyə uyğun şəkildə yanaşaraq Şimali Azərbaycanın Rusiya tərəfindən işğal olunması faktını irəli sürmüş və Rusiyanın o dövrdə Azərbaycanda yeritdiyi siyasətin müstəmləkəçi səciyyə daşıdığını qeyd etmişdi[127]. Bu dövrün tarixçiliyimizdə hələ indiyədək tam araşdırılmamış problemlərindən biri də 1801-1828-ci illər müqavimət hərəkatında Azərbaycan ali zümrəsinin oynadığı rolun müəyyənləşdirilməsi məsələsi olmuşdur. Bu məsələdən yazan tarixçilərin çoxu unutmuşlar ki, elə o dövrlərdə Rusiyanın müstəmləkə orqanları ali zümrəni tabe etmədən Azərbaycan torpaqlarının işğalının mümkünsüzlüyünü aydın surətdə dərk edirdilər[128].

### 1. İşğal Dövründə Rusiyanın Ali Müsəlman Zümrəsi İlə Bağlı Siyasəti

Azərbaycan xanlıqlarında ali zümrəni təşkil edən xan və bəylərin böyük əksəriyyəti etnik və dini baxımdan onlara tamamilə yad olan rus hökumətinə qarşı qatı

---

[124]Əliyev, M., Şimali Azərbaycanın Rusiya tərəfindən işğalının tarixşünaslığı, Bakı, 2001,s.131-153.
[125] Yenə orada,s.154-191
[126] Kommunist qəzeti, 30 yanvar 1964 cü il; İbraqimbeyli, X.M., Rossiya i Azerbaydjan v pervoy treti XIX veka, Moskva, 1969; Abdullayev, Q.B., Azerbaydjan v XVIII beke i vzaimootnoşenie eqo s Rossiey, Bakı,1965; Azərbaycan tarixi, 3 cilddə, II c.,Bakı, 1964, XII fəsil.
[127] Sov. İKP XXIV qurultayının qərarı ilə əlaqədar olaraq ideoloji işi daha da genişləndirmək sahəsində respublika partiya təşkilatının vəzifələri haqqında materiallar, 29-30 oktyabr 1971-ci il, Bakı, 1972,s.3; Azərbaycan tarixi, Uzaq keçmişdən 1870-ci ilə qədər., II nəşr, Redaktoru Süleyman Əliyarlı, Bakı, 2009, XVI bölüm..
[128] Qubaydulin, A., Feodalnıye klassı i krestyanstvo v Azerbaydjane v XIX veke. – otd., s.30.

düşmən mövqeyi tuturdular. Qubanın hakimi Şeyxəli xan, onun tərəfində duran əsilzadə bəylər və əhali 6 il ərzində üç dəfə Rusiyaya qarşı qeyri-bərabər mübarizəyə qalxmış, işğalçı ordu ilə qəhrəmanlıqla döyüşmüşdülər. Gəncə hakimi Cavad xan və xanlığın bütün bəyləri 1804-cü ilin yanvarında general Sisyanovun başçılıq etdiyi rus ordusu ilə döyüşə girmiş, ölümü əsarətə düşməkdən üstün tutmuşdu. Şəki hakimi Səlim xan 1806-cı ildə Qarabağ hakimi İbrahim xan ailəsi ilə birlikdə rus mayoru Lisaneviç tərəfindən böyük qəddarlıqla qətlə yetirildikdən sonra (Səlim xanın bacısı İbrahim xanın arvadı idi və o da qətlə yetirilmişdi) Şəki qalasındakı rus hərbi dəstəsini məhv etmişdi. Üsyana qalxmiş Səlim bəy həmin ilin oktyabrında qeyri-bərabər döyüşdə rus hərbi qüvvələri tərəfindən məğlubiyyətə uğradılmışdı[129]. Göründüyü kimi, Rusiyanın Azərbaycanda apardığı savaşlar adi bir gəzinti olmayıb, ciddi müqavimətlə qarşılaşırdı.

Rusiyanın Qafqazarxası bölgələrdə işğalçılıq planlarının həyata keçirilməsi işində fəal rol oynamış və müsəlman bölgələrinə erməni köçürmələrinin əsas təşkilatçılarından biri A.S.Qriboyedovun «burada hər addıma rus qanı çilənmişdir»[130] mülahizəsini təsadüfi deyilmiş gəlişi gözəl söz saymaq olmaz.

Danışdığımız dövrün hadisələrinə Azərbaycan xalqının tarixi və milli mənafeləri baxımından yanaşılsaydı, tarix kitablarında 1818-1819-cu illərdə Şəmşəddil bölgəsində Nəsib Sultan və Mustafa ağanın başçılığı ilə Rusiyaya qarşı yönəlmiş üsyanın[131], 1825-ci ilin sentyabr ayında Şəki bölgəsinin 45 kəndini bürümüş və ali zümrə nümayəndələrinin başçılıq etdiyi xalq üsyanının[132] üstündən sükutla keçilməzdi. O çağın tarixi sənədlərinin təhlili müstəmləkəçiliyə qarşı milli-azadlıq hərəkatının təşkilatçısı və rəhbəredici qüvvəsi olan Azərbaycan xanlarının və bəylərinin tarixi haqqının özlərinə qaytarılmasını tələb edir.

1826-cı ilin iyul-avqust aylarında rus müstəmləkəçiliyinə qarşı bütün Azərbaycanı bürüyən üsyan baş vermişdi. Rəsmi hökumət sənədlərində «ümumi həyəcan» kimi qiymətləndirilən və mərkəzi hökuməti Qafqazın taleyi üçün qorxuya salan iri miqyaslı bu üsyan da indiyədək milli-azadlıq hərəkatı tarixində öz layiqli yerini tutmamışdır. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, bu üsyan nəticəsində rus qoşunları Azərbaycan torpaqlarını tərk etməyə, əsas hərbi gücünü Tiflisin müdafiəsinə toplamağa məcbur olmuşdu. On ildən çox müddətdə Qafqazda rus siyasətini həyata keçirmiş general Yermolova bu hadisəyə görə 2 mart 1827-ci il Ali çar fərmanı ilə «şiddətli töhmət» elan edilmiş[133]və Qafqazın baş komandanı vəzifəsindən götürülmüşdü. O çağın rəsmi dairələrində Azərbaycan əyalətlərində Rusiya əleyhinə bütün üsyan və çıxışların yerli bəy və ağaların təsiri ilə baş verdiyi açıq şəkildə göstərilir, onların hər vasitə ilə cəzalandırılması «asiyalılara qarşı ən etibarlı üsul»[134] hesab edilirdi. Bütün bu siyasi amilləri nəzərə alan rus hökuməti Azərbaycanın işğalı dövründə ona mane ola biləcək yeganə qüvvə olan ali zümrəni siyasi, fiziki və iqtisadi baxımdan sıradan çıxarmaq və zərərsizləşdirmək siyasəti yeritmişdir. Bu siyasətin çoxçalarlı və mürəkkəb səciyyə daşıdığını qeyd etməklə, onun başlıca istiqamətlərini aşağıdakı kimi qiymətləndirmək olar.

[129] Bakixanov, A, Gülüstani-İrəm, Bakı, 1951, s.196-198.
[130]Azərbaycan tarixi üzrə qaynaqlar, II nəşr, Redaktoru Süleyman Əliyarlı, Bakı,2007, sənəd 62, s.290.
[131] Aktı sobrannıye Kavkazskoy Arxeoqrafiçeskoy Komissiey (sonralar Aktı…), t.6, ç.1,Tiflis, 1874, dok. 1035,1036, 1038, s.702-703,dok. 1163, s.785.
[132]Gürcüstan Mərkəzi Dövlət Tarix Arxivi (GMDA), f.2, siy.1,iş 1992, v.1.
[133] Yenə orada.
[134] Aktı..., Pod red. A.Berje, t. IV, Tiflis, 1870, dok.1028, s.670.

Birinci istiqamət: çarizmin hərbi cəza orqanları işə düşür, ələ keçən bəy və ağalar müharibə qanunları ilə cəzalandırılır, edam edilir, həbsə alınır, ən yaxşı halda Sibirə və başqa yerlərə sürgün edilirdi[135].

İkinci istiqamət: Ali zümrənin torpaq, siyasi hüquq və imtiyazları məhdudlaşdırılır və ona qarşı nəinki milli, həm də dini ayrı-seçkilik münasibəti bəslənilirdi. Qonşu gürcü zadəganlarına öz sosial və silki hüquqlarını tənzimləmək üçün Zadəgan Deputatları Məclisi kimi mühüm orqanın fəaliyyətinə icazə verən, gürcü zadəganlarını bütün hüquqlar baxımından rus zadəganlarına bərabər tutan Rusiya hökuməti müsəlman bəylərini heç vaxt bu hüquqlara yaxın buraxmadı[136].

Rusiyanın Qafqaz bölgəsində müstəmləkəçilik xəttini daha ardıcıllıqla həyata keçirən general A.P.Yermolov (1816-1827) işğalçılarla barışmayan qüvvələrə qarşı hər cür üsuldan istifadə edir, bu işdə ona erməni R.Q.Mədətov yardımçılıq edirdi. Bu şəxs Qafqazda rus siyasətinə sədaqətli qulluğuna görə, sadə zümrədən olmasına baxmayaraq, rus hökuməti tərəfindən general rütbəsinə və knyaz tituluna layiq görülmüşdü. A.P.Yermolovun sağ əli, mənbələrə görə «Axilles dabanı» sayılan Mədətovdan Rusiya vassallığını məcburən qəbul etmiş Qarabağ hakimi Mehdiqulu xana, Şirvan hakimi Mustafa xana, Şəki hakimi İsmayıl xana qarşı təzyiq və hədə-qorxu vasitəsi kimi istifadə edilirdi[137].

Knyaz Mədətov Qarabağ hakimi Mehdiqulu xana qarşı xüsusilə amansız davranırdı. Yermolovla birlikdə qurduqları məkrli plan əsasında 1818-1820-ci illərdə xandan knyaz Mədətovun «dədə-baba torpaqlarını» geri qaytarmağı tələb etdilər. Mədətov vergi verən zümrədən olduğu üçün onun ata-babasından heç bir mülk və torpaq qalmasa da, Yermolovun təzyiqi qarşısında heç bir əsas olmadan xan 1500 kəndli ailəsindən ibarət bir çox kəndin Mədətova «qaytarılması» haqda fərman imzalamağa məcbur edilmişdi. Knyaz Mədətov həmin sənədə istədiyi kəndlərin də adını öz əli ilə əlavə etdikdən sonra belə saxta sənədi 1821-ci ildə Yermolovun xüsusi səyləri nəticəsində rus çarı I Aleksandr təsdiq etmişdi. Mənbələrin yazdığı kimi, heç bir əsli-nəcabəti olmayan Mədətov bu üsulla az qala Qarabağın yarısına yiyələndi[138]. O, Şirvanda həyata keçirdiyi hədə-qorxu və şər yaxmaq taktikasını 1822-ci ildə Qarabağda işə salaraq Mehdiqulu xanın Qarabağdan İrana qaçmasına nail oldu. Nəticədə ləğv edilmiş üç xanlığın yerinə müsəlman əyalətləri hərbi dairə rəisliyi yaradıldı; iqamətgahı Şuşada yerləşən bu idarəyə knyaz Mədətov başçı təyin edildi[139]. Bundan sonra müsəlmanlar yaşayan torpaqlarda əsl rus-erməni siyasəti yeridilməyə başlandı. Bu əyalətlərdəki rus qoşun dəstələrinin də başçısı sayılan Mədətov xüsusilə Qarabağda müsəlman bəylərini sıxışdırır, vəzifədən uzaqlaşdırır, yerlərinə erməniləri təyin edir və müsəlman əhalisini amansızlıqla soyub talayırdı[140]. Buna cavab olaraq, 1826-cı ildə Azərbaycanda rus müstəmləkəçiliyinə qarşı ümumi üsyan baş vermişdi.

---

[135] Rusiya Federasiyası Mərkəzi Dövlət Arxivi (RFMDA), f.1377,siy.,1,iş 29; Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivi (ARMDA), f. 63, siy 1,iş 14,v.574; f.75, siy.1,iş 11, v.13-68; f.47,siy.1,iş 6.v.12-49; GMDA, f.2, siy.1, iş 203, v.1-23.

[136] GMDA, f.2, siy.1,iş 3011, v.1-7; iş 3025, v.5-12.

[137]Aktı..., t.6,ç.2,Tiflis,1876,dok1079-1081, c.725-726; t. 7, Tiflis, 1878, dok. 407, s.458; Pokrovckiy, V.P., Diplomatiya i voynı sarskoy Possii v XIX stoletiy, M.-L.,1924,s.186.

[138]Aktı..., t.6,ç.2,Tiflis,1876,dok.1079-1081,s.725-726; t.7,Tiflis,1878, dok.1206,s.807-808.

[139]Aktı...,t.6,ç.1,Tiflis,1874,dok. 1097,s.738.

[140] ARMDA, f.130,siy.1,iş13,v 2-3.

## 2. Çarizmin Müstəmləkə Orqanlarının Bölgədə "Xristian Dayağı" Yaratma Və Köçürmə Siyasəti

Rusiyanın Qafqazda yeritdiyi müstəmləkəçilik siyasətinin başlıca cəhətlərindən biri də «xristian təəssübkeşliyinin» təsiri altında xristian əhalidən ibarət sosial dayaq yaratmaqdan ibarət idi. Bu zaman başlıca diqqət bölgədə azlıq təşkil edən erməni əhalisinə verilmişdir. Bu sahədə ilk addımlar rusların müstəmləkəçilik xəttinin daha ardıcıl həyata keçirildiyi XIX yüzilliyin 20-ci illərində təcrübədən keçirilmişdir. 1827-ci ildə Şəmşəddil və Qazax distansiyalarında müsəlman bəylərinin kəndlər və kəndlilər üzərində ənənəvi hüquqları kobud şəkildə pozulmuş, onların sahibliyində olan kəndlərin idarəçiliyi erməni arxiyepiskopu Nersesin ixtiyarına buraxılmışdı[141]. Bu, Azərbaycan torpağında görünməmiş və tarixdə analoqu olmayan hadisə idi. Çünki Qafqaz bölgəsində erməni ali zümrəsinin cüzi yer tutması, hətta tarixi türk torpağı olan İrəvan xanlığında İran şahının icazəsi ilə cəmi 5 erməniyə sərdar tərəfindən bəy paltarı geyməyə icazə verilməsi bu xalqın Qafqaz bölgəsində heç bir tarixi kökünün olmadığını sübut edir.

Tarixi Azərbaycan torpaqlarında azlıq təşkil edən erməni əhalisinin müsəlman hakimlərinin idarəsi altından çıxarılması prosesi 1827-ci ildə İrəvan xanlığı rus qoşunları tərəfindən tutulduqdan sonra başlanmışdı. Əhalisinin 73,8 faizi müsəlman türklərindən ibarət olan[142] İrəvan xanlığı 1828-ci ildə «Erməni vilayətinə» çevrilmişdi. Hələ 1827-ci il dekabrın 15-də çarın baş qərargah rəisi qr.Dibiçin Qafqazın baş komandanı qr.Paskeviçə göndərdiyi xüsusi «Qaydalar»da əsrlərdən bəri müsəlman ali zümrəsinin təsiri altında olan ermənilərə özünüidarə verilməsi ideyası qırmızı xətlə keçirdi və bu ideya Qafqazın mülki işlər hakimi general-leytenant Velyaminov tərəfindən mənfi qarşılanmışdı. «Qaydalar»la bağlı qeydlərində o göstərirdi ki, bu addım «müsəlman hakimlərinin ənənəvi sahiblik hüquqlarını sarsıtmaqla (əslində rus hökumətinin əsl məqsədi də elə bu idi) onları hökumətdən narazı salar, çünki Qara dənizdən Xəzər dənizinədək Rusiyanın yiyələndiyi torpaqlarda əhalinin 2/3 hissəsi müsəlman olduğundan bu qayda çoxsaylı əhali içərisində Rusiyaya inamı sarsıdar, Türkiyə və İran hökumətləri bu yerlərdə asanlıqla qiyamlar təşkil edərlər…»[143]. Bu reallığa baxmayaraq, mərkəzi hökumət təbii ki, İrəvan xanlığını «erməniləşdirmək» siyasətindən əl çəkmədi.

Rus hökuməti Türkmənçay (1828-ci il) və Ədirnə (1829-cu il) müqavilələrindən sonra İran və Osmanlı İmperiyasından erməni əhalisinin kütləvi şəkildə Azərbaycana köçürülməsinə başladı[144].

Kütləvi erməni köçürmələrinin Qafqazarxası bölgələrdə demoqrafik vəziyyətə təsiri və onun siyasi çalarları ilə bağlı rus tarixçisi N.N.Şavrovun belə bir qeydi də çox maraqlıdır: «Müharibədən sonrakı iki ildə (1828-1830-cu illər nəzərdə tutulur) Zaqafqaziyaya İrandan 40 min, Türkiyədən 84 min nəfər erməni köçürülmüş və onları ermənilərin azlıq təşkil etdiyi İrəvan və Yelizavetpol quberniyalarında … yerləşdirmişik … XX əsrin əvvəllərində Zaqafqaziyada yaşayan 1,3 milyon erməninin 1 milyonu diyarın köklü sakinləri olmayıb, bizim tərəfimizdən məskunlaşdırılmışdır»[145]. Dövlət

[141] GMDA, f.2, siy.1,iş 559, v. 106.
[142] Bu faizin çıxarildıgı qaynaq: Narodonaseleniye Armyanskoy oblasti 1834-1835 qq. - GMDA, f.2, siy.1,
iş 3859,v. 20
[143] Aktı..., t.7,Tiflis,1878, dok. 435, s. 483-484.
[144] Qriboyedov, A.S.,Soçineniya, t.2,Moskva,1971, s. 339.
[145]Şavrov, N.N., Novaya uqroza russkomu delu v Zakavkazye: Predstoyaşaya rasprodaja Muqani inarodsam, SPb,1911, s. 59-60.

səviyyəsində ardıcıl olaraq həyata keçirilən bu siyasət nəticəsində bölgədə demoqrafik tarazlıq pozulmuş, Rusiyanın əli və gücü çatan yerlərdə vəziyyətin erməni əhalisinin xeyrinə dəyişdirilməsinə cəhd göstərilmişdir. 1823-cü il kameral sayımına görə, Qarabağ əhalisinin 8,4 faizini təşkil edən ermənilərin xüsusi çəkisi artaraq 1832-ci ildə 34,8 faizə, 1897-ci il sayımına görə isə 53 faizə çatmışdı[146]. İşğaldan əvvəl İrəvan xanlığının əhalisinin 3/4-nü təşkil edən Azərbaycan türklərinin xüsusi çəkisi artıq 1834-35-ci illərdə 46 faizə enmişdi. 1918-1920-ci illərdə İrəvanda daşnaklar tərəfindən 100 minlərlə Azərbaycan türkü məhv edilmiş və ya öz doğma torpaqlarından qovulmuşdu. Türk və müsəlmanlara qarşı revanşist əhval-ruhiyyənin ən bariz nümunələrindən biri kimi 1827-ci ildə İrəvan şəhərinin rus qoşunları tərəfindən işğal edilməsi şərəfinə çar I Nikolayın həmin ilin noyabr ayının 4-də imzaladığı Ali fərmanı misal gətirmək olar. Bu fərmanla rus süngüsünün «müsəlmanlar üzərində qələbəsi» şərəfinə İrəvanın baş məscidinin Pravoslav yunan-rus kilsəsinə çevrilməsi qərara alınmışdı[147].

### 3. Çarlıq Rusiyasının Şimali Azərbaycan Kəndində Qurduğu "Açıq Qarət" Sistemi

Azərbaycanda rus müstəmləkiçiliyinin yaratdığı qanunsuzluq, özbaşınalıq və soyğunçuluq rejiminin nədən qaynaqlandığını aydın dərk etmək üçün o dövrki rus dövlətinin hərbi-bürokratik mahiyyətini və xarakterini açıb döstərmək lazım gəlir. Çarın gizli müşaviri Qreçin rus dövlət maşınını burumuş özbaşınalıq və rüşvətxorluq haqda əlahəzrət imperatora 1859-cu ildə təqdim etdiyi məruzə bu baxımdan çox önəmlidir: «**Neujeli nevozmojno nayti iz 60 millionov naseleniya Rossii 8 umnıx ministrov i 50 çestnıx qubernatorov**?»[148] (yəni 60 milyonluq Rusiya əhalisindən 8 ağıllı nazir və 50 dürüst, vicdanlı qubernator tapmaq doğrudanmı mümkün deyil?). Həmin çağın mənbələrində Rusiyanın dövlət sistemi «**zahirən parıltılı, daxilən çürük**» hesab edilməsi göstərir ki, Azərbaycan işğaldan sonra məhz belə bir çürük qanunlarla deyil, fovqəladə hallarla, top və süngülərlə, özbaşınalıq və rüşvət sistemi ilə idarə olunan bir orqanizmə daxil edilmişdir.

Azərbaycandakı rus idarələri və dövlət məmurları əsl özbaşınalıq və qanunsuzluq nümunəsi göstərirdilər. Bunu bir neçə misal əsasında əyani şəkildə göstərmək olar. 1821-ci ildə Şəmşəddil pristavı öz xeyrinə əhalidən əlavə vergilər yığmış, Şirvan əyalətinin komendantı podpolkovnik Vısotski vergi borcu kimi yığdığı pulları mənimsəmişdi. 1829-cu ildə Yelizavetpol dairə rəisi podpolkovnik Berents və polismeystr Yankovskiyə qarşı sakinlərə hökumətə satdıqları taxıla görə ödəniləcək 13301 rublu (gümüş) mənimsədiklərinə görə başlanan cinayət işi 12 il uzanmış, müqəssirlər cəzasız qalmışdılar[149].

1829-30-cu illərdə mərkəzdən Zaqafqaziyada yoxlama aparmaq üçün göndərilən senatorlar qr. P.İ.Kutaysov və Y.İ.Meçnikov yazırdılar: «…Müsəlman əyalətlərində rəislərin azğınlığından və əhalinin çəkdiyi əziyyətdən adam dəhşətə gəlir. Burada insan ləyaqəti tapdalanmış, hər cür ədalət unudulmuş, qanun yalnız əsarət aləti olmuşdur»[150].

---

[146]ARMDA, f. 24, siy. 1,iş 141, v.226; Obozrenie Rossiyskix vladeniy za Kavkazom v statistiçeskom, etnoqrafiçeskom, topoqrafiçeskom otnoşeniyax, ç.III, tablisa "B", SPb, 1836.
[147] Aktı..., t.7,Tiflis,1878, dok. 433, s.481.
[148]Yeroşkin, N.P., Krepoctniçeskoye samoderjaviye i yeqo politiçeskiye institutı (Pervaya polovina XIX veka), Moskva, 1981, s.56.
[149] ARMDA, f.130,siy.1,iş 121, v.318-324, 391-393; GMDA, f.2, siy.1,iş 1597,v. 4-8; iş 2317, v. 1-53; RFMDTA, f.1377, siy.1, iş 12,v.19,23; GMDA, f.2, siy.1,iş 1034,v.5-9.
[150]Aktı..., t.7, Tiflis, 1878,dok. 35,s.20, dok.368, s.423-424.

Rusiyanın Azərbaycanda yaratdığı «açıq qarət» və soyğunçuluq sisteminin başqa cəhətlərindən biri də dövlət gəlir sahələrinin iltizama (icarəyə) verilməsi idi. Dövlət təsərrüfatlarından vergi yığmaq hüququ bir neçə illiyə ruslara, çox vaxt isə müxtəlif bölgələrdən müftə gəlir iyinə Azərbaycana axışmış acgöz erməni tacirlərinə satılırdı. İltizamçılar müsəlman əhalisinin dərisini soyur, dövlətə ödədikləri məbləğdən qat-qat çox qazanc götürürdülər[151].

**Sonuç**

Beləliklə, istər Qafqaz, istərsə də digər türk torpaqlarında rusları ermənilərlə möhkəm tellərlə bağlayan amilləri müəyyənləşdirmək o qədər də ciddi araşdırma tələb etmir. Tarix boyu öz etnik və din qardaşları olan slavyanları da əzən, müstəqil yaşamasına imkan verməyən rusları ermənilərlə birləşdirən sözsüz ki, müsəlman və türk xalqlarına qarşı eyni məqsəd və mənafedən çıxış etmələridir. Hal-hazırda da ruslarla etnik baxımdan eyni kökdən olan polyaklar, çexlər, slovaklar, ukraynalılar dadlarını bildikləri rus boyunduruğundan canlarını qurtarıb, etnik baxımdan onlara yad olan başqa xalqların köməyinə, himayəsinə sığınmağa çalışırlar. Belə olan halda Rusiyaya heç bir etnik bağlılığı olmayan, hətta dini məzhəbi nə pravoslavlığa, nə də katolikliyə uyğun gəlməyən ermənilərin Rusiya ilə əbədi qardaşlıqdan dəm vurması, Ermənistanın simvolik müstəqilliklə barışaraq bu fövqəldövlətin hərbi meydanına çevrilməsi tarixin iki yüz illik sınağından çıxmış «ana-bala» münasibətlərindən daha çox strateji maraqların uyğunluğu və tarixin hər bir keçid mərhələsində Rusiyanın Azərbycandan qoparıb aldığı torpaqların ermənilərin «ağzına atılması» ilə bağlıdır.

**QAYNAQLAR**

1. Azərbaycan tarixi, 3 cilddə, II c.,Bakı, 1964, XII fəsil.
2. Azərbaycan tarixi, Uzaq keçmişdən 1870-ci ilə qədər., II nəşr, Redaktoru Süleyman Əliyarlı, Bakı, 2009, XVI bölüm.
3. Azərbaycan tarixi üzrə qaynaqlar., II nəşr, Redaktoru Süleyman Əliyarlı, Bakı,2007, sənəd 62.
4. ABDULLAYEV, Q.B., Azerbaydjan v XVIII beke i vzaimootnoşenie eqo s Rossiey, Bakı,1965.
5. Aktı sobrannıye Kavkazskoy Arxeoqrafiçeskoy Komissiey (sonralar Aktı…), Pod red. A.Berje, t. IV, Tiflis, 1870, dok.1028.
6. Aktı..., t.6, ç.1,Tiflis, 1874, dok. 1035,1036, 1038, 1163.
7. Aktı..., t.6, ç.2, Tiflis, 1876, dok.1079-1081.
8. Aktı..., t.7, Tiflis, 1878, dok.35, 368, 407.
9. Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivi (ARMDA,fond 24,siyahı 1,iş 141,v.226
10. ARMDA, f.47,siy.1,iş 6.
11. ARMDA, f.63,siy.1, iş14.
12. ARMDA, f.75,siy.1, iş 6,8,11.
13. ARMDA, f.130,siy.1,iş13,121
14. BAKIXANOV, A, Gülüstani-İrəm, Bakı, 1951.
15. QUBAYDULİN, A., Feodalnıye klassı i krestyanstvo v Azerbaydjane v XIX veke. – otd. ottisk iz sb. "Vostokovedeniya", t.3, Baku,1928.
16. QRİBOYEDOV, A.S., Soçineniya, t.2,Moskva,1971.

[151] Yenə orada,s.20,423-424

17. ƏLİYARLI, S.S., “Buz qırıldımı?” Volfqanq Esnter Lerxin məktubu haqqında, Azərbaycan jurnalı, № 1, 1989.

18. ƏLİYEV, M., Şimali Azərbaycanın Rusiya tərəfindən işgalının tarixşünaslıgı, Bakı, 2001.

19. YEROŞKİN, N.P., Krepoctniçeskoye samoderjaviye i yeqo politiçeskiye institutı (Pervaya polovina XIX veka), Moskva, 1981.

20. İBRAQİMBEYLİ, X.M., Rossiya i Azerbaydjan v pervoy treti XIX veka, Moskva, 1969.

21. Gürcüstan Mərkəzi Dövlət Tarix Arxivi (GMDA), f.2, siy.1,iş 203,559,1034, 1597, 1992,2317,3011,3025, 3859.

22. Kommunist qəzeti, 30 yanvar, 1964-cü il.

23. Obozrenie Rossiyskix vladeniy za Kavkazom v statistiçeskom, etnoqrafiçeskom, topoqrafiçeskom otnoşeniyax, ç.III, tablisa “B”, SPb, 1836.

24. POKROVSKİY,V.P., Diplomatiya i voynı sarskoy Possii v XIX stoletiy, M.-L.,1924.

25. Rusiya Federasiyası Mərkəzi Dövlət Arxivi (RFMDA), f.1377, siy. 1, iş 12,29.

26. Sov. İKP XXIV qurultayının qərarı ilə əlaqədar olaraq ideoloji işi daha da genişləndirmək sahəsində respublika partiya təşkilatının vəzifələri haqqında materiallar. 29-30 oktyabr 1971-ci il, Bakı, 1972.

27. Şavrov, N.N., Novaya uqroza russkomu delu v Zakavkazye: Predstoyaşaya rasprodaja Muqani inarodsam, SPb,1911.

**(13)**

**ZEYNELABİDİN ŞİRVANİ** : 1780-1837
AZERBAYCANLI GEZGİN

Dr Emrullah Güney
Dicle Üniversitesi
Sosyal Alanlar Eğitimi Profesörü
Diyarbakır
emrullahguney@gmail.com
0.505.562 54 68

Seyahatnamesi, seyyahnamesi, sefernamesi olan kaç gezgin tanıyoruz?

Her seyyah izlenimlerini, gözlemlerini, yaşadıklarını yazmış olsa da, edebi bir değer taşıyan, unutulmayan, iz bırakmış, kalıcı değer kazanmış kaç tane vardır edebiyat dünyasında ?

Nasırı Hüsrev, İbn Batuta, Marko Polo, Katip Çelebi, Evliya Çelebi…

Yaşamını ve eserlerini inceleyeceğimiz Zeynelabidin kimdir?

Ömrünün kırk yılını yollarda geçirmiş bir seyyah, bir gezgin, bir seferi…

ZEYNELABİDİN ŞİRVANÎ

Şimdi onun özyaşamöyküsüne geçebiliriz.

O, Azerbaycan'ın Şamahı kentinde doğmuştur. 1780 yılının 16 Ağustos günü . Hicri takvimle 1194 senesinin Şaban ayının ortaları. Kendi ifadesiyle " Şamahı diyarında yokluk çölünden varlık fezasına gadem goymuştur. "

Babası Ahund İskender kimdir?

O, üksek ruhani tahsilli, hürmet edilen bir alimdir.

Zeynelabidin, daha beş yaşında iken, müderris olan babası 1785'te aileyi Irak'taki Kerbela'ya göçürmüştür. Gezginimiz, eserlerinde bu göç ile ilgili bilgi vermiyor. Acaba, kuzeyden ayak sesleri duyulmağa başlanan, Kafkas Dağlarını aşmağa hazır Çarlık Rusyası ordularının işgali endişesi mi yol açmıştır bu yer değiştirmeğe, yaşam alanını bırakmağa; bilmiyoruz.

Belki de, o yıllarda Osmanlı Devleti toprağı olan Kerbela, daha güvenli görünmüştür. Ya da müderris baba, Kerbela medreselerinden bir çağrı da almış olabilir.

Zeynelabidin , Kerbela'da ilk derslerini aile ortamında babasından, daha sonra da mekteplerde, medreselerde almıştır. Belleği güçlü bir çocuk olduğu bellidir; ailenin kullandığı dil Türkçeye, edebiyat dili olarak Farsçayı, islamın dili olarak Arapçayı da eklemiştir. Ortadoğu'yu, İç Asya'yı Muson memleketlerini rahatça gezebilmesi için daha sonraları Türkmen dilini, Hindçeyi de öğrenmiştir. O dönemde Britanya

egemenliğindeki günümüz Pakistan' ında Urdu dili konuşulsa da, zaten Farsça danışan bir insan için o diyarlarda gezip dolaşmak da hiç sorun yaratmamış olmalıdır.

Dönemin görkemli bilginlerinden 12 yıl ders almıştır Zeynelabidin. Kerbela, ulemanın rağbet gösterdiği , birçok görkemli müderrisin ders vermek için yarıştığı bir mübarek beldedir. Derviş Masum Ali Şah Hindistani'nin samimi sohbetleri reherlik eder Zeynelabidin'e. Sonra Bağdat'a göçüp, orada bilimini, bigisini kemale yetirmek için Nur Ali Şah İsfahani'nin derslerini bir şakird olarak dinler ve müstefid olur.

Açıklamalardan anlıyoruz ki, Bağdat XVIII. Yüzyıl sonlarında aynı İstanbul, Kahire, Baku, Tebriz, Şam gibi büyük bir uygarlık ortacı, ekin ortamıdır. Bilginlerin kimler olduğuna bakıyoruz; Hind diyarından gelenler var, Acem diyarından gelip yerleşenler var…

Zeynelabidin, öz öğretmenlerini, önlerinde diz çöküp ders dinlediği müellimlerini yürekten sever ve yaşamı boyunca unutmaz, sık sık anar. Yukarıda adı verilen ulemaya ek olarak Meczub Ali Şah Hemedani de Onun eğitiminde iz bırakmış hocalardandır. Fakat, burada açıklanması gereken bir nokta da vardır . O bazı müellimleri " dini bilikler çerçevesinden kenara çıkabilmedikleri ve tek yönlü biliğe sahi oldukları için " eleştirmekten de geri durmamıştır.

Genç Zeynelabidin mütaleayı seviyordu. Azerbaycan Türkçesini, Kerbela'ya beş yaşında getirilmesine karşı, pek güzel öğrenmişti. Çünkü hısım akraba, Şamahı'dan ve İran'ın Azerbaycan'ından Kerbelaya göçmüş aileler arasında yarenlik hep Türkçeyle yapılıyordu.

" Ben oniki yıl atamın ve diger bilginlerin yanında remi bilimleri ve edebi fenleri öğrenmekle meşgul olmuş, yeteneğime göre fazilet ve kemal sahiplerinin hırmanlarından sünbül dermişem."

Zeynelabidin, değişik konulu kitapları ve Eski Yunancadan çevrilmiş elyazması kitapları incelerken özünün derin bilgiye sahip olmadığını ve bilmediği çok şey bulunduğunu anlar. O zaman üzüntüyle düşünür ki, ilahiyatı öğrenmeğe harcadığı zamanı heder etmiştir.

Doğa bilimlerini derinlemesine öğrenmek isteyen Şirvani, görkemli bilgin olarak tanınmış ulemadan bazı müellimlerin pek sığ bilgiye sahip olduklarını anlayınca derin bir düş kırıklığı yaşar. Doğa bilimleri hakkında anlayışları olmayan bu bağnaz insanlardan uzaklaşır.

Derin ve verimli mütalealar, özellikle bilginlerle görüşmeler ve sohbetler geçirmek, genç Zeynelabidin'de dünyayı gezmek, çeşitli halklar ile görüşmek, onların gelenek ve göreneklerini, kültürlerini, tarihlerini öğrenme hevesi uyandırmıştır. Bağdat'ta bir süre yaşadıktan sonra, daha fazla beklemez, gezilerine başlar.

Zeynelabidin, 58 yıllık ömrünün 40-41 yılını yolcu olarak geçirmiştir. Sefernamelerini, zamanın geçerli yazın dili olan Farsça ile yazmıştır.

O yalnızca bir gezgin değildir. Salt gördüklerini yazan sıradan bir gözlemci, izlenimci olmamıştır.

Din ve fanatizmin egemen olduğu Doğu ülkelerine o dönemde seyahat oldukça çetindir. Teknik zayıftır. Uzun yolları geçmek, salgın, bulaşıcı hastalıklardan korunmak, yorgunluğun yol açtığı sıkıntılar, yüce dağlarda baş veren kar uçgunları, çovgunlar, seller, beldeleri bir anda yıkıntılaştıran, insanları öldüren depremler, susuz sahralardan geçmek, yabanıl hayvanlarla dolu yoğun ormanlık alanlarda gezmek, fırtınalı deniz ve okyanuslarda gemi yolculuğu yapmak…Sayısız, hesaba gelmeyen rastlantılar ölümle sonuçlanabiliyordu.

Zeynelabidin, çektiği meşakkati, sıkıntıları şöyle dile getirmiştir : " Men denizlerin dalgalarından, insafsız feodalların gaddar ordularından çok eziyet çektim."

Şirvanî, bazı diyarların bağnaz halkından çok ıstırab çekmiştir. Örneğin, İran'ın fanatik ruhaniler, öz mevkilerinin zayıfladığını görüp, gezgini gözden düşürmeğe çalışmışlardır : " O Allahsızdır, gezdiği ülkelerde kafirlerle oturup-durmuştur. Şirvanî yoldan çıkmış bir kafirdir.O, bizi bilgin ve şairlerimizi de özü gibi kafir etmeğe çalışıyor."

Birçok emir, sultan gezginimizi onurlandırarak sarayında, konağında ağırlar ve en yüksek saygıyı gösterirken, bazı devlet başçıları da onu "düşman, katlivacip" ilan etmişlerdir. Örneğin Kirman hakimi İbrahim Han, bühtanlara inanır ve Ona çok eziyet çektirir.Yazdığına göre " İbrahim Han zalim bir adam idi. O, gaddarlıkta başka zülmkarlardan üstün idi."

Ezginimiz, ziyaret ettiği diyarların yöneticileriyle siyasal görüşmeler yapar; bir uluslararası ilişkiler, politika uzmanıdır. Kendi ifadesinden okuyalım : " Men İstanbul'da Nemse (Avusturya) Kralının konsülü ile görüştüm. Bir neçe vakt onunla oturub durdum. Onda o, bana Nemse Kralı tarafından teklif etdi ki, Kralın oğlunu talim, terbiye etmek üçün Nemse ölkesine gedim. Men fagir, bundan imtina etdim ve boyun gaçırdım, bununla beraber, konsül menim haggımda üreyeyatan hidmetler etdi."

0, halkın yaşayış özeliklerini araştırı; bir etnografya, folklor bilginidir.

0, şairlerle şiir konuşur; güçlü bir yorumcu, eleştirmendir.

0, ülkelerin coğrafi yapısını araştırır; üstün nitelikli bir coğrafyaşünastır.

Bir şarkiyatçıdır O. Dinler tarihi yazarıdır. Britanyalı bilgin Edward Brown diyor ki: " Zeynelabidin büyük zeka sahibi ve yetenekli gözlemcidir Onun tarikatlar hakkında topladığı materyal büyük önem taşır Zerdüştler, Mezdekiler, Museviler, Hristiyanlar, Hindular, Sufiler hakkında yazdıkları bilimsel yönden büyük değer taşır.

Zeynelabidin bir ansiklopedist olarak da tanımlanabilir. Ne var ki ansiklopedik yazılarının bir bölümü İran'da Farsça olarak kitaplaştırılmış, yazma eserleri dünyanın

birçok kütüphanesine, müzelere dağılmış, hiçbir zaman tümü tek bir merkezde bir araya getirilememiş, Türkçeye de yazıları tam olarak çevrilememiştir.

Zeynelabidin'i Türk dünyasına tanıtan Nureddin Keremov olmuştur. O, **Gırh İl Seyahatde** adlı kitapta, Onun eserlerinden bir seçme yaparak yayımlamıştır. Biz de, dahi seyyahı bu yolla tanıdık ve şimdi, burada, tanıtma çabası içine girdik.

…………………..

Azerbaycan kadim uygarlığa sahip bir halkın yaşadığı diyardır. Burada dünya şöhreti kazanmış sanatkarlar yetişmiştir. Bilimin bütün alanları üzre görkemli nailiyetler elde etmiş bilginler de çıkmıştır. Astronomi, felsefe, tarih, edebiyat, incesanat ve diger alanlarda bilimin gelişmesine çalışmış, ansiklopedik bilgiye sahip bilginlerle birlikte, coğrafya biliminin ilerlemesinde görkemli etki bırakmış coğrafyaşünas bilgin ve gezginler de az değildir.

Zeynelabidin Ortadoğu-Önasya diyarında Zeynelabidin İbn Ahund İskender adı ile ün kazanmıştır. O karaların ve büyük denizlerin, okyanusların seyyahıdır. Mezopotamya, İran Küçük Asya yaylaları, Orta Asya, Arabistan sahraları, Sudan savanları, Seylan, Hind diyarı, Hindiçin ormanları, Nil ırmağının orta ve aşağı çığırları, Parapamiz, Kuhi Baba, Hindikuş, Tiyan Şan, Himalaya, Pamir, Süleyman, Zagros gib çetin dağ silsilelerini aşması, Habeşistan dağlarına kalkması… eserlerini okuyanlarca bilinmektedir. Gezdiği yerler toplamı, ardı ardına eklense 60 bin kilometre eder ki, bu, Ekvator dairesinden bir yarım defa çoktur.

Zeynelabidin , gezdiği ülkeler ve halklar hakkında derin bilgi derleyip toplamıştır. Ziyaret ettiği ülkeleri dört büyük eserinde anlatmıştır:

1. **Riyazüs-Seyahe** : Yolculuk Bahçeleri,
2. **Hedayigüs – Seyahe** : Yolculuk Bağları,
3. **Bustanus-Seyahe** : Yolculuk bostanı,
4. **Keşfül-Maarif** : Marifetlerin bulunuşu.

Gezgin, ayrıca başka eserler de kaleme almıştır. Divanı vardır; şiirlerden ibarettir. Mevlana Celaleddin Rumi 'nin Mesnevi'sine derin mezmunlu bilimsel tanıtım- mukaddime yazmıştır.

Zeynelabidin Şirvani'nin seyahatlerini güzergah ( marşrut ) düzenine göre ele alabiliriz.

**Birinci güzergah**: Bağdat, Irak-ı Acem, Gilan, Talış, Mugan, Şirvan, İran Azerbaycanı, Horasan, Herat, Kabil, Pakistan, Hind diyarı, Bangladeş, Siyam ve Maçin adaları, Seylan, Sind, Multan, Keşmir, Bedehşan, Batı Tibet, Pamir, Türkistan, Yarkend, Tiyan Şan, Taşkent, Buhara, Toharistan, Tuan, Horasan, Fars Eyaleti.

**İkinci güzergah** : Şiraz, Darab, Bender Abbas limanı, Hürmüz Boğazı, Umman Körfezi, Muskat, Basir Adaları, Hadramut, Yemen, Babül Mendeb, Habeşistan, Sudan, Cidde, Hiaz, Mekke, Medine, Yenbu limanı, Kızıl Deniz yolu ile

Guseyre limanı, Gıne, Nil, Kahire, Port Said, Sina Yarımadası, Ürdün, Filistin, Lübnan, Suriye Irak.

**Üçüncü üzergah** : Bağdat, Diyarbekir, Karaman, Aydın, Bahri Ehzer ( Atlas Okyanusu), Ege Adaları, Balkan yarımadası, Akdeniz, Ege Denizi adaları, Rumeli, İstanbul, Anadolu, Azerbaycan, Tahran, Hemedan, İsfahan, Kirman, Şiraz.

**Dördüncü Güzergah** : Şiraz, Buşir, İran ve Umman körfezleri, Arabistan Denizi, Aden Körfezi, Babül Mendep Boğazı, Kızıl ( Kırmızı ) Deniz, Cidde.

ZEYNELABİDİN BİR ŞEHRİ NASIL ANLATIRDI:

Şirvani, bir şehri coğrafyaşünas gözüyle inceler, bir şarkiyatçı özeniyle araştırır, halkının nasıl yaşadığını bir folklorcu, bir etnograf kalbiyle görürdü. Örneğin , Gence şehri hakkında şöyle demekte ve diger şehirleri de anmaktadır : “ Gence büyük ve gözel bir şehirdir. Aran’ın en güzel şehirlerinden hesap olunur. Beşinci iklime dahildir. Suyu tadlıdır. İklimi hoş ve yeri nisbeten düzcedir. Gence’nin ahalisi Türk dilinde danışır ve çoğunluğu Şiidir. Hristiyanlar da vardır. Hepsinin yüzü ak ve gözeldir. Bir neçe şeher vardır ki, onlar bütün şeherlerden gözelliyi, guruluşu, ab-havası ile üstündür. Birincisi Gence’dir. Ondan sonra İran’da İsfahan’dır. Horasan’da Merv ve Tus şehirleridir.”

Onun kaleminden bir de Bakı şeherini okuyalım : “ Bakı’ya…iklimine göre Badkube denir, ona göre ki, çok zaman o topraktan külek (yel) eksik olmaz. Bazen öyle külek eser ki, oranın hayvanat ve yapılarına büyük zarar değer. Buna göre de bu şeherin evlerini yonulmuş taşlardan dikmişler ve damlarını gırlamışlardır. Su orada azdır, fakat temiz ve gözeldir. İklimi sıcak havaya eğilimlidir. Toprağı kumludur. Denilene göre, Enuşirvan’ın diktirdiği yerlerdir. Surları ise Şirvan Şahları tarafından çevrilmiştir. Orada üç bin kadar ev vardır. Yakınlığında ise birçok köy yerleşir. Şeherin çevresinde hiçbir bağ ve ekin yeri yoktur.”

Gezginimizin İzmir hakkında ne yazdığına bakalım : “ İzmir böyük şeher ve limandır. Akdeniz’in (Ege) kenarında salınmıştır. Şimal tarafdan bir kadar bağlıdır. O biri tarafdan açıkdır. İzmir limanı Avrupa şeherleri semtinde olduğundan ehalisinin ekseriyeti Avropalılardır. Ona göre de ehl-i Rum oraya “Gavur İzmir” derler. Burada yirmibine yakın ev vardır. Şeherde dövlet adamları ve tecimenler yaşar. İzmir abad limandır. Yedi ülkenin malları, Şam, Rum, Merakeş, Elcezair ehli ve Avropalılar orada çoktur. İzmir’in dövlet ve serveti metah ve kumaşları hakkında ne kadar yazsan şişirtme deyil.”

İSTANBUL

Seyyah Şirvanî, Türkiye’de ister ahali isterse de ziyalılar ve hükümet başçıları tarafından büyük saygı ve ihtiramla karşılanır.

1827 ( Hicri 1242) yılında Zeynelabidin , eski adının Güstenteniyye oluğunu belirttiği İstanbul’da üç aydan çok yaşamıştır. “ İslambul şeheri azametli, ahalisinin çokluğu büyüklüğü, imaretlerinin gözeliği ile meşhurdur. İslambul alçak dağ ve

tepelerin arasında yerleşmiştir. Osmanlılar burayı özlerine payitaht etdiler ve şeherin abadlığına çalışdılar. Burada ikiyüz bin ev vardır. Onların çoğu üç katlı ve iki tarafdan pencerelidir. Evlerin bir tarafının pencereleri küçe, pazar, dışarı ve deniz semtedir. Öbür pencereler ise evin hayatına açılır. Şeherin evleri gözel üslupla tahtadan tikilmişdir. Lakin padişah evleri, saraylar, medreseler, mescid ve kervansaraylar taştan, kerpiçten tikilmiş, demir ve mis (bakır) ile möhkemlendirilmiştir."

O, burada birçok adalarla, o cümleden Ahmed Paşa adlı büyük rütbeli bir kişi ile, Yusuf Paşa, Şeyhülislam Dürrizade Efendi ve başka hükümet adamları ile tanış olup tez tez görüşür. Ahmed Paşa ile dostlaşır. Bir gün Ahmed Paşa öz evinde büyük bir meclis düzeltir. Seyyah da davet edilir. Şirvanî, bu meclisteki sohbetinde der ki: " Akıl insan için en büyük nimettir. Akıl hakikattır. Akıl hakikatten kenara çıkmamalıdır. O, yalana düşmandır. Akıl insan için en güzel bezektir. Akıl sahibi olan herhangi bir şahıs bütün ayıplardan uzak olur. Her şeyin anlamını yalnız akılla derk etmek, pisi yahşiden akılla seçmek mümkündür. Akıl insan için sağlam bünövredir ( temel, bingi ) . Akıl mülküne sahip olan şahıs dünyayı olduğu gibi görür. İnsan, aklı vasıtasıyla özünü binbir beladan koruyabilir. Her bir çetin meseleyi akıl ve temkinle halletmek mümkündür.

Şirvanî, Osmanlı Devletinin baş veziri Kör Yusuf Paşa ile tanış olmuş ve onunla birçok kez görüşmüştür. Padişah Sultan 2. Mahmud Han bir davet verir. Şeyhülislam Dürrizade Efendi'nin de hazır bulunduğu toplantıda Padişah, seyyahımıza bir öneride bulunur. " Ben isterim ki, sen Dersaadet'te kalıp bir süre dinçleşesin. Sonra burada okul açıp öz İslam kardaş ve oğullarına görüp bildiklerini, seyahatlerini öğretesin. Hiçbir şeyden ihtiyacın olmayacak seni tamam te'min edecektir."

Padişah Mahmud Han'ın önerisi güzeldir, hoştur, onurlandırıcıdır. Ancak, seyyahımız sabit bir hayat yaşayacak insan değildir; daha gezilecek çok yer vardır. Yenilikçi, reformcu sultanın önerisini O, kabul etmez, nezaketle reddeder.

ÜÇLÜ : Hava, su, toprak…

Hacı Zeynelabidin Şirvanî, Herat şehri dolaylarını anlattıktan sonra, güzelliklerine vurgunluğunu dile getirir ve ölümsüzlüğün formülünü verir :

**Horezmin suyu, İsfahan'ın toprağı ve Herat'ın havası**…

Bu, üç unsur bir araya gelse, aynı alanda buluşsa, orada insan ölmezmiş.

TEŞEKKÜR

" Geniş dünya görüşüne, sağlam iradeye, olağanüstü belleğe, derin bilgi ve inceleme gücüne sahip Zeynelabidin Şirvani'nin eserleri tarihî-coğrafî kaynak olarak

değerli, eşsiz ve benzersizdir. Bir rastlantı değildir; çağının bilgin ve sanatçıları gibi Şirvani de eserlerinde hikmetamiz, müdriklikle söylenilmiş kelamlara geniş yer ayırmıştır. Onun eserlerindeki nasihatli sözler, aforizmalar, tarihî, coğrafî, etnografik materyaller, pedagojik düşünceler öz teravetini daima koruyacaktır."

Hacı Zeynelabidin Şirvanî'yi Türk kamuoyuna tanıtan Nureddin Keremoğlu Keremov'a minnet ve şükran duygularımızı dile getirerek yazımıza son veriyoruz.

**Keremov, Keremoğlu N**. 1977. Gırh İl Seyahatde. 184 sayfa.
Azerbaycan Dövlet Neşriyatı.
Bakı.

KİTAP TANITIMLARI ve REKLAMLAR




"TÜRK BİRLİĞİ PROJESİ"

Türk demek, dil demektir. Milliyetin çok bariz vasıflarından birisi dildir. Türk milliyetindenim diyen insanlar, her şeyden önce mutlaka Türkçe konuşmalıdırlar. Türkçe konuşmayan bir insan Türk harsına, camiasına mensubiyetini iddia ederse buna inanmak doğru olmaz. M.Kemal Atatürk Mustafa Kemal Atatürk Diyor ki : " Bugün Sovyetler birliği dostumuzdur, müttefikimizdir. Bu dostluğa ihtiyacımız vardır. Fakat yarın ne olacağına kimse bugünden kestiremez. Tıpkı Osmanlı gibi, tıpkı Avusturya – Macaristan parçalanabilir, ufanalabilir. Bugün elinde sımsıkı tuttuğu milletler avuçlarından kaçabilirler. Dünya yeni bir dengeye ulaşabilir. İşte o zaman Türkiye ne yapacağını bilmelidir. Bizim dostumuz idaresinde dili bir, inancı bir, özü bir, kardeşlerimiz vardır. Onlara sahip çıkmaya hazır olmalıyız. Hazır olmak yalnız o günü susup beklemek değildir. Hazırlanmak lazımdır. Milletler buna nasıl hazırlanır? Manevi köprüleri sağlam tutarak Dil bir köprüdür… inanç bir köprüdür… Tarih bir köprüdür… Köklerimize inmeli ve olayların böldüğü tarihimiz içinde bütünleşmeliyiz. Onların ( soydaş Türk kardeşlerimizin ) bize yaklaşmasını beklememeliyiz. Bizim onlara yaklaşmamız gerekli." " Türk birliği'nin bir gün hakikat olacağına inancım vardır. Ben görmesem bile gözlerime dünyaya onun rüyaları içinde kapayacağım. TÜRK Birliği'ne inanıyorum. Onu görüyorum. Yarının tarihi yeni fasıllarına TÜRK birliği ile açacak. Dünya sükununu bu fasıllar içinde bulacaktır. Türklüğün varlığı bu köhne aleme yeni ufuklar açacak. Güneş ne demek, ufuk ne demek o zaman görülecek. Hayatta yegane varlığım ve servetim Türk olarak doğmamdır.

Kitap isteme: Yrd. Doç. Dr. Elnur Hasan MİKAİL, e-posta: emikail@turansam.org